www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Həftəlik qəzet 28 yanvar - 3 fevral 2026-cı il Çərşənbə axşamı № 4 (8853) Qiyməti 1 manat

Xəbər

## AŞ PA-dan yeni qərəzli qətnamə

yazısı səh.11-də

Ölkə

## Good luck, "Qarabağ"...



Bu gecə təkcə İngiltərədə deyil, digər yeddi şəhərdə keçirilən oyunun nəticəsinə görə də həyəcanlanmalı olacağıq...

yazısı səh.3-də

# NATO-DAN BAKINI QORUMAQ VƏDİ

Alyans müttəfiqlərinə enerji asılılığını aradan qaldırmaqda əhəmiyyətli dəstəyinə görə Azərbaycana minnətdardır; dəniz limanının təhlükəsizliyi və vacib infrastrukturun qorunması müzakirələri Rusiyadan yeni təhdid gözləntilərini aktuallaşdırıb




yazısı səh.8-də

## "Qafqaz Putinin ərazisidir" bəyanatının kodları

yazısı səh.4-də

## İsrail Xəzərə gəlir - BESA "beyin mərkəzi"nin analizi

yazısı səh.5-də

## Kreml Solovyov və Duqinə sahib çıxdı

yazısı səh.5-də

## İngilisdilli "Kyiv Post"dan anti-Azərbaycan mövqe

yazısı səh.6-da

## Daşnaksütyunun sonu

yazısı səh.9-da

## Elektron siqaret qadağası təsdiqləndi

yazısı səh.14-də

## İranın bir sayğısız bəyanatına qısa cavab

yazısı səh.9-da

## İşsizlik adlı "canavar"...

yazısı səh.13-də

## "Metsamor" ya partlayacaq, ya söküləcək

yazısı səh.11-də

## Tələbə olmaq istəyənlər niyə Bakını seçir - səbəblər

yazısı səh.13-də

## Bankların yeni "faiz əməliyyatı" - nəyə hazırlıq?

yazısı səh.14-də

# Bir qocanın sirri: yer altındakı Xamenei...

İranın azərbaycanlı "Fidel Kastro"su öldürülə bilərmi; Xomeyni niyə məhz Xameneini siyasi varisi seçmişdi?

yazısı səh.7-də



## İsa Həbibbəylidən sonra AMEA-nın prezidenti kim ola bilər?

yazısı səh.6-da



## Bakıya gələcək Ceyms Di Vensin həyat hekayəsi

yazısı səh.10-da



## Paşinyan haqda "vanqasayağı" qorxulu proqnoz

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 4 (8853) 28 yanvar 2026



# Prezident Sumqayıtda

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Sumqayıt Sənaye Parkında "Nun" MMC-nin polipropilen və laminatlı kisə istehsalı müəssisəsinin təməlini qoyub.**

APA xəbər verir ki, "Nun" MMC-nin təsisçisi Kamran Rzayev yaradılacaq müəssisə barədə dövlət başçısına məlumat verib.

Bildirilib ki, ötən il Sumqayıt Sənaye Parkının rezidenti statusu verilən bu MMC tərəfindən reallaşdırılacaq layihəyə uyğun olaraq 1 hektar ərazidə istehsal müəssisəsinin tikintisi nəzərdə tutulub. Almaniya texnologiyasından istifadə ediləcək müəssisənin illik istehsal gücü 1680 ton laminatlı kisə, 1440 ton polipropilen kisə olmaqla ümumilikdə 3120 tondan çox təşkil edəcək. Məhsullar əsasən daxili bazarın tələbatını ödəyəcək. Burada 140 daimi iş yeri yaradılacaq. İnvestisiya həcmi 11,2 milyon manat olan müəssisənin qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 3 milyon manat dəyərində güzəştli kredit ayrılması nəzərdə tutulub.

İlham Əliyev Sumqayıt Sənaye Parkında "Bakı Karton və Qutu Fabriki" MMC-nin karton və qutu taralarının istehsalı müəssisəsinin açılışında da iştirak edib.

# Bakıda saxlanılan Rusiya vətəndaşlarının həbs müddəti uzadılıb

**Bakıda saxlanılan Rusiya vətəndaşlarından ibarət dəstə üzvləri barəsində həbs-qətimkan tədbirinin müddətinin uzadılması barədə qərar verilib.**

APA xəbər verir ki, bununla bağlı təqdimatlara Xətai Rayon Məhkəməsində baxılıb.

Vəkil Cavad Cavadlı APA-ya bildirib ki, bu gün keçirilən proseslərdə dəstə üzvlərinin hər biri barəsində olan həbs-qətimkan tədbirinin müddəti 3 ay uzadılıb.

Cavad Cavadlı müdafiə etdiyi Rusiya vətəndaşı ilə bağlı qərardan apelyasiya şikayəti verəcəyini deyib.

Qeyd edək ki, həmin şəxslər Daxili İşlər Nazirliyinin İrandan narkotik vasitələrin tranziti, dövriyyəsi və kiberdələduzluqla bağlı keçirdiyi əməliyyat nəticəsində saxlanılıblar. Onlar barəsində ötən il iyulun 1-də Səbayel Rayon Məhkəməsində 4 aylıq həbs-qətimkan tədbiri seçilmişdi. 28 oktyabrda Xətai Rayon Məhkəməsinin qərarı ilə onların həbs müddəti 3 ay uzadılmışdı.



# Əli Kərimli ilə bağlı məhkəmə qərarı

**Bakı Apelyasiya Məhkəməsi AXCP sədri Əli Kərimlinin ev dustaqlığına buraxılması barədə Səbayel Rayon Məhkəməsinin imtina qərarından verdiyi apelyasiya şikayətinə baxıb.**

Məhkəmə AXCP sədrinin şikayətini təmin etməyib və o həbsdə saxlanılıb. Qeyd edək ki, Əli Kərimli PA-nın sabiq rəhbəri Ramiz Mehdiyevin cinayət işi çərçivəsində həbs edilib.

# Hamının gözlədiyi xəbər: kimlər tibbi sığortanı özü ödəyəcək?




**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev "2025-ci ilin yekunları və hədəflər" mövzusunda keçirilən mətbuat konfransında "Tibbi sığorta haqqında" Qanunda edilən dəyişikliklər barədə məlumat verib.**

Sədrin sözlərinə görə, icbari tibbi sığorta 2021-ci ildən etibarən bütün ölkə üzrə tətbiq olunur və bu illər ərzində sistemin formalaşması və dayanıqlılığının təmin edilməsi üçün dövlət müəyyən əhali qruplarını sığortahaqqı ödəməkdən azad edib: "Yeni dövlət 5 il ərzində sözügedən vətəndaşların tibbi xidmət xərclərini öz üzərinə götürüb. Növbəti mərhələdə nəzərdə tutulan məqsədyönlü maliyyələşmə modelinə keçid etməkdir.

Qanuna edilən dəyişikliklər biri də icbari tibbi sığorta sistemində sığortaolunan şəxslərin əhatə dairəsinin dəqiqləşdirilməsinə və qeyri-formal məşğulluğun təsir dairəsinə düşən şəxslərin bu sistemdə iştirak mexanizminin tənzimlənməsinə yönəlib.

Qeyri-formal məşğulluğun təsir dairəsinə düşən şəxslər icbari tibbi sığorta üzrə özləri ödəyici kimi çıxış edəcəklər, digər şəxslər üzrə isə sığortahaqqının ödənilməsi mexanizmi dəyişmir.

Rəsmi işləyənlər sığortahaqlarını maaşlarından ödəyir, qeyri-formal fəaliyyət göstərən şəxslərin də eyni prinsiplə iştirak etməsi ədalətli bölgünü təmin edir. Bu addım həm də sistemin maliyyə sabitliyini qoruyacaq".

Sözügedən mexanizmin tətbiqi Nazirlər Kabinetinin müvafiq qaydası qüvvəyə mindikdən sonra mümkün olacaq: "Bu səbəbdən qeyri-formal məşğulluğun təsir dairəsinə düşən şəxslərin konkret siyahısı təsdiqlənənə qədər əvvəlki qaydada sığortadan istifadə edəcəklər".



## Məhkəmə sədrinin oğlu niyə intihar edib?

**Xətai rayonunda şəxsin arvadına xəsarət yetirdikdən sonra intihar etməsi faktı ilə bağlı cinayət işi başlanılıb.**

Bu barədə Baş Prokurorluğun Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, yanvarın 25-də Xətai rayonu ərazisində Emin Əlizadənin Şəfiqə Ələkbərovanı qəsdən öldürməyə cəhd etməsi, daha sonra isə özünü hündürlükdən ataraq intihar etməsi faktı ilə bağlı Xətai Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.1 (qəsdən adamöldürməyə cəhd) və 125-ci (özünü öldürmə həddinə çatdırma) maddələri ilə cinayət işi başlanaraq istintaq aparılır.

Qeyd edək ki, yanvarın 25-də Qəbələ Rayon Məhkəməsinin sədri Abbas Əliyevin oğlu Emin Əlizadə uşaqlarının gözü qarşısında həyat yoldaşına 20 bıçaq zərbəsi vurub. E.Əlizadə hadisəni törədəndən sonra yaşadığı 10-cu mərtəbədən 16-cı mərtəbəyə qalxaraq gözləyib. Artıq hüquq-mühafizə orqanlarının əməkdaşları hadisə yerinə gələrkən o, özünü 16-cı mərtəbədən yerə ataraq intihar edib.

## Buraxılış imtahanında yeni model




**Gələn ildən buraxılış imtahanında xarici dil fənni üzrə müəyyən dəyişikliklər nəzərdə tutulur.**

Dövlət İmtahan Mərkəzindən bildirilib ki, 2027-ci ildən etibarən tam (11 illik) orta təhsil səviyyəsində təhsilalanların yekun attestasiyası zamanı xarici dil fənləri üzrə istifadə olunacaq imtahan modeli müzakirəsi ilə bağlı seminarda qeyd edilib ki, mərhələli yanaşmanın davamı olaraq 2027-ci ildə tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında həmin şagirdlərin xarici dil biliyinin dinləmə bacarığı üzrə bir mətn və mətnə əsasən 4 qapalı tipli test tapşırığı, oxu bacarığı üzrə iki oxu mətni və hər mətnə aid 4 qapalı tipli test tapşırığı, leksik-qrammatik biliyin ölçülməsi üzrə 13 qapalı tipli test tapşırığı vasitəsilə, yazı bacarığının yoxlanılması isə verilən mövzu və ya sual əsasında ən az 100 söz həcmində bir abzasdan ibarət yazı yazmaq tələb edən modelə əsasən qiymətləndirilməsi nəzərdə tutulur.

Qeyd edilib ki, yeni yanaşmanın əsas məqsədi şagirdlərin dil bacarıqlarını daha real, funksional və kommunikativ kontekstdə ölçməkdir. Yazı tapşırığı iştirakçıların strukturlaşdırılmış yazı bacarığını ölçməyə yönəlib və şagirdlərin fikirlərini məntiqi ardıcıllıqla ifadə etmə qabiliyyətini ön plana çıxarır. Nəzərdə tutulan yeni imtahan modeli nümunəsi ilə buradan tanış ola bilərsiniz.

Qeyd edək ki, bu imtahan modelinə uyğun olaraq Elm və Təhsil Nazirliyinin (ETN) dəstəyi ilə Dövlət İmtahan Mərkəzi tərəfindən 2025-ci ildə Bakı və Sumqayıt şəhərlərinin bəzi məktəblərində pilot imtahanlar keçirilib.

Xatırladaq ki, bu imtahan modelinə uyğun tapşırıq nümunələri və öyrədici materiallar artıq Elm və Təhsil Nazirliyi tərəfindən təsdiqlənmiş və istifadə olunan xarici dil fənni üzrə dərsliklərdə geniş şəkildə təqdim olunub. Bundan əlavə, tətbiq olunacaq imtahan modelinə uyğun müxtəlif tapşırıq nümunələri DİM-in siniflər üzrə nəşr etdiyi "Qiymətləndirmə tapşırıqları" kitabında, test toplularında da veriləcək.



## TIR sürücüləri üçün imtahan keçiriləcək

**Fevralın 27-də xüsusi hazırlıq keçmiş taksi minik avtomobili sürücüləri və beynəlxalq yük daşımalarını həyata keçirən sürücülərin xüsusi hazırlığının nəticələrinin qiymətləndirilməsi məqsədilə növbəti imtahan təşkil olunacaq.**

Dövlət İmtahan Mərkəzindən (DİM) bildirilib ki, imtahanda iştirak etmək istəyən hazırlıq keçmiş şəxslər ilk növbədə mərkəzin saytında "Şəxsi kabinet" yaratmalı (kabineti olmayanlar) və müvafiq olaraq aşağıdakı xidmətlər vasitəsilə qeydiyyatdan keçməlidir:

1. Taksi minik avtomobillərinin sürücülərinin etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlığının qiymətləndirilməsi üzrə test imtahanında iştirakı üçün qeydiyyat fevralın 16-sı saat 18:00-dək davam edəcək.

2. Beynəlxalq yük daşımalarını həyata keçirən sürücülərin hazırlığı və yenidən hazırlığının qiymətləndirməsi üzrə test imtahanında iştirakı üçün qeydiyyat 16 fevral saat 18:00-dək aparılacaq.



## Tikintiyə icazə ilə bağlı qaydalar dəyişdi

**Tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması ilə bağlı qaydalarda dəyişiklik edilib.**

Bakupost.az xəbər verir ki, bununla bağlı baş nazir Əli Əsədov müvafiq qərar imzalayıb.

Qərara əsasən, tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması və ya əsaslandırılmış imtina barədə qərar haqqında məlumat qərar verildiyi andan dərhal sonra Tikintilərin Dövlət Reyestrinə təqdim ediləcək. Daha əvvəl 3 iş günü müddətində reyestrə təqdim edilirdi.

YENİ MÜSAVAT
N 4 (8853) 28 yanvar 2026




# Good luck, "Qarabağ"...

## Bu gecə təkcə İngiltərədə deyil, digər yeddi şəhərdə keçirilən oyunun nəticəsinə görə də həyəcanlanmalı olacağıq...

**Bu gün "Qarabağ" UEFA Çempionlar Liqasının Liqa mərhələsində sonuncu oyununa çıxır. "Qarabağ" İngiltərədə yerli "Liverpul"un qonağı olacaq. "Liverpul" əvvəlki "şir" deyil, son turda onlar da "Qarabağ" kimi uduzub. Ağdamlılar "Kəpəz"ə (0:2), ingilislər "Bornmut"a (3:2). Elə milli çempionatlarda da xalları eynidir-36. "Liverpul" bu xalla 6-cı sırada, "Qarabağ" isə ikinci sıradadır. Çempionlar Liqasında hazırda turnir cədvəlində "Liverpul" 15 xalla 4-cüdür. 10 xala malik "Qarabağ" isə 18-cidir. "Liverpul" indiyədək 67 titul qazanıb, o cümlədən 19 liqa, altı Çempionlar Liqası titulu. 127 illik tarixi ərzində "Liverpul" loqosunu səkkiz dəfə dəyişdirib. Yalnız bir detal dəyişməz qalıb - ingilis futbolunu izləyən hər kəsə tanış olan mifoloji quş...**

***

Qarşılaşma ərəfəsi "Qarabağ"a da təriflər var. Onların içərisində türkiyəli mütəxəssis Naci Şensoyun qol.az saytına dedikləri maraq doğurur. Şensoy Ağdam təmsilçisini ilk turda Frankfurt klubuna 1:5 hesabı ilə uduzan "Qalatasaray"la müqayisə edib: "Əgər "Qarabağ" Türkiyə Superliqasında mübarizə aparsaydı, hazırda "Qalatasaray" və "Fənərbaxça" ilə çempionluq uğrunda yarışardı. Bu komandalardan heç də geri qalmır. Məncə, "Qarabağ" həm "Trabzonspor", həm də "Beşiktaş"dan daha güclü komandadır". Yaxşı motivasiyadır, Türkiyə superliqasının klublarına azarkeşlik edənlər üçün də düşünmək üçün "pasdır..."

***

Bəllidir ki, bu oyun həm "Liverpul", həm də "Qarabağ" üçün prinsipial xarakter daşıyır. "Liverpul" mütləq qalib gəlmək istəyəcək, çünki bu halda 1/8 finala vəsiqəni birbaşa təmin edəcək. Heç-heçə və ya uduzmaq "Liverpul"u "pley-off"a ata bilər ki, bu halda da komanda hansısa rəqiblə daha iki oyun (evdə və səfərdə) keçirməli olacaq. "Liverpul"un kapitanı Vircil van Deyk də ilk 8-likdə qalmaq üçün Ağdam təmsilçisinə qalib gəlməli olduqlarını deyib: "Birbaşa 1/8 finala yüksəlmək bizim üçün çox vacibdir. Çünki pley-off mərhələsini buraxmış olursan və bu da hazırda keçdiyimiz gərgin oyun qrafikində bizə kömək edəcək. Evdə oynayacağıq. Gəlin, ilk 8-likdə yer alacağımızdan əmin olaq".

"Qarabağ"ın "Anderlext" üzərində əzmkar qələbəsindən sonra Azərbaycan təmsilçisinin mərhələ adlayacağına ümidlər artıb. Hələ püşkatmada sonra, xüsusilə ilk iki turdakı qələbələrdən sonrakı hesablamalar sonucu oyunun- "Liverpul"la qarşılaşmanın simvolik xarakter daşıyacağını düşünürdük. Yəni hesablamalara görə, "Liverpul" səfəri öncəsi "Qarabağ"ın 13 xalı olmalı idi. Ən pis halda 11 xalın "cibimizdə" olduğunu deyirdik. Amma hər şey "Ayaks"la oyunda tərsinə oldu. ÇL turnir cədvəlində məğlubiyyətləri sıralayaraq sonuncu pillədə olan Niderland təmsilçiləri məğlub olmalarına baxmayaraq, oyunun çarxını öz xeyirlərinə dəyişib (2:4) Bakıdan qələbə ilə döndülər. "Qarabağ" əgər oyunda 1 xal belə qazansaydı, indi "Liverpul"la oyunun həyəcanı fərqli olacaqdı. Bu məğlubiyyət indi bizə baha başa oturur. Həm də ona görə ki, təkcə pley-off şansımıza görə İngiltərədə deyil, digər 7 şəhərdə keçirilən oyunun nəticəsinə (bütün oyunlar son turda eyni vaxta başlayır) görə həyəcanlanmalı olacağıq. Düzdür, ekspertlərinin hesablamalarına görə, "Qarabağ" 90% "pley-off" mərhələsinə düşəcək. "Qarabağ" "Liverpul" üzərində qələbə qazansa və ya heç-heçə etsə "pley-off"a öz hesabına adlayacaq. Amma komandamız uduzacağı təqdirdə bir neçə digər oyunun nəticəsinə uyğun olaraq növbəti mərhələyə keçəcək. Belə ki, 8-ci turda keçiriləcək həmin 7 oyundan 2-sində, məsələn, "Barselona" (İspaniya) - "Kopenhagen" (Danimarka) oyununda ispanlar uduzmasa, eyni zamanda "Napoli" (İtaliya) - "Çelsi" (İngiltərə) matçında ingilislər məğlub olmasa, "Qarabağ"ın "pley-off"a yolu avtomatik açılır.

**"Qarabağ"ın uduzacağı təqdirdə "pley-off"a çıxması üçün aşağıdakı oyunlarda adları qara şriftlə verilmiş klublardan heç olmasa ikisi uduzmamalıdır:**

"Napoli" (İtaliya) - "Çelsi" (qara İngiltərə);

PSV (Hollandiya) - "Bavariya" (qara Almaniya);

"Monako" (Fransa) - "Yuventus" (qara İtaliya);

"Bayer Leverkuzen" (Almaniya) - "Vilyarreal" (qara İspaniya);

"Atletik" (İspaniya) - "Sportinq" (qara Portuqaliya);

"Ayaks" (qara Niderland) - Olimpiakos" (Yunanıstan) ;

"Barselona" (qara İspaniya) - "Kopenhagen" (Danimarka).

***

Yeri gəlmişkən, "hop edib tullanmamış" "Qarabağ"ın "pley-off"dakı potensial rəqibləri haqda da danışılır.

a) Pley-off"un püşkatması zamanı (30 yanvar) 9-16-cı yeri tutanlar "səpələnmişlər", 17-24-cü yeri tutanlar isə "səpələnməmişlər" səbətində yer alacaq.

Yəni 9-16-cı yeri tutan 8 komanda yalnız 17-24-cü yeri tutan 8 komandadan biri ilə qarşılaşacaq.

b) "Səpələnməmişlər" səbətindəki komanda "pley-off"da ilk matçı evdə, cavab oyunu səfərdə keçirəcək.

c) "Pley-off"la bağlı püşkatmaya dair UEFA-nın qaydalarında deyilir: "16 klub ümumi mərhələnin yekun sıralamasına əsasən ikili qruplara bölünəcək və bununla da dörd "səpələnmiş" cüt (turnir cədvəlində 9-10-cu, 11-12-ci, 13-14-cü, 15-16-cı yerləri tutan klublar) və dörd "səpələnməmiş" cüt (17-18-ci, 19-20-ci, 21-22-ci, 23-24-cü yerlər) formalaşdırılacaq.

Hər "səpələnmiş" cütdəki klublar pley-off toruna düşəcək və "səpələnməmiş" cütlərdəki klublarla qarşılaşacaq".

Yəni...

9 və ya 10-cu yerləri tutan klublar 23 və ya 24-cü yerləri tutan klublarla,

11/12 - 21/22 ilə,

13/14 - 19/20 ilə,

15/16 - 17/18 ilə üz-üzə gələcək.

Bu o deməkdir ki, əgər yarış indi - 7 turdan sonra bitsə idi, hazırda 18-ci pillədə olan "Qarabağ" ya "Yuventus"la (15-ci yer) ya da "Borussiya" Dortmundla (16-cı yer) qarşılaşacaqdı.

***

"Liverpul" "Qarabağı" ev oyunlarını keçirdiyi "Enfild"də qarşılayacaq. Liverpuldakı "Enfild" stadionunun zəngin tarixi 1884-cü ilə gedib çıxır. Əvvəlcə Everton klubu tərəfindən icarəyə götürülmüş stadion sonradan yeni yaradılmış "Liverpul"un evinə çevrildi. Bir əsrdən çox müddət ərzində Enfild çoxsaylı modernləşdirmələrə məruz qalaraq onu Böyük Britaniyanın ən müasir və tutumlu arenalarından birinə çevirib. Təmirin əsas mərhələlərinə yeni tribunaların tikintisi, təkmilləşdirilmiş işıqlandırma və müasir təhlükəsizlik sistemlərinin quraşdırılması daxildir. Bu gün stadion 50.000-dən çox tamaşaçı tutumuna malikdir və təkcə futbol oyunlarına deyil, həm də konsertlərə və digər tədbirlərə ev sahibliyi edir.

***




"Liverpul"un bu sezon yaxşı formada olmaması haqda deyilənlər, sadəcə, tənqid deyil. Baxmayaraq ki, bu mövsüm bahalı transferlərlə diqqət çəkmişdi. Məsələn, klub isveçli hücumçu Aleksandr İsakı 144 milyon avroya "Nyukasl"dan transfer etməklə İngiltərə Premyer Liqasında yeni transfer rekordu qırdı. Bu mövsüm "Ayntraxt"ın hücumçusu Uqo Ekitiken üçün klub 95 milyon avro ödəyib. Amma hələ ki bu iki futbolçudan, eləcə də digər transferlərdən gözlədikləri effekti ala bilməyiblər.

"Qarabağ"la oyun öncəsi "Liverpul"un heyətində itkilər var. Co Qomez, Covanni Leoni və Konor Bredli də zədəlidir. Federiko Kyezanın da durumu sual altındadır.

"Liverpul"un baş məşqçisi Arne Slotun komandadakı gələcəyi haqda ziddiyyətli xəbərlər var. İspaniyanın "AS" nəşri xəbər verir ki, komandanın qeyri-sabit çıxışı niderlandlı mütəxəssisin üzərindəki təzyiqi getdikcə artırır. Çempionlar Liqasında Marseldə qazanılan son qələbəyə (3;0) baxmayaraq, "Liverpul" azarkeşlərinin öz komandalarını fitə basması vəziyyətin nə qədər ciddi olduğunu göstərir. Xüsusilə bu narazılıq Arne Slot üçün əlavə təzyiq yaradır. "Qarabağ" ÇL mərhələsində artıq bir baş məşqçini istefaya göndərib. "Benfika" nın doğma meydanda "Qarabağ"a 2:3 hesabı ilə uduzduqdan sonra klub baş məşqçisi Brunu Laje ilə yollarını ayırıb.

***

UEFA matçı Slovakiyadan olan hakimlər briqadasına tapşırıb. Görüşü FİFA referisi İvan Krujlyak idarə edəcək..

İvan Krujlyak ötən ilin avqustunda Çempionlar Liqasının 3-cü təsnifat mərhələsində keçirilmiş "Şkendiya" - "Qarabağ" oyununu idarə etmişdi. Həmin oyunda "Qarabağ" 1:0 hesabı ilə qalib gəlmişdi.

Qarşılaşma yanvarın 29-na keçən gecə Bakı vaxtı ilə saat 00:00-da başlayacaq.

Uğurlar, "Qarabağ"!

❑ **"Yeni Müsavat"ın idman şöbəsi**

YENİ MÜSAVAT
N 4 (8853) 28 yanvar 2026



## “Qafqaz Putinin ərazisidir” bəyanatının kodları

### Bəzi təhlilçilərə görə, Trampın bəyanatı birbaşa hüquqi-siyasi iddiadan çox, geosiyasi reallıqların onun üslubunda sərt ifadəsi kimi qiymətləndirilməlidir

**ABŞ Prezidenti Donald Tramp Ağ Evdə keçirilən brifinqdə yenidən Azərbaycan və Ermənistan arasındakı sülhyaratma missiyasından danışarkən diqqətçəkən ifadə işlədib. O, Putinin Ermənistan və Azərbaycanla bağlı ona belə dediyini yada salıb: “İnana bilmirəm ki, siz bu müharibəni həll etdiniz. Mən 10 ildir bu münaqişəni həll etməyə çalışıram”. Tramp qeyd edib ki, hər iki ölkə uzun illər müharibə vəziyyətində olub. “Bu, böyük bir sülh oldu”,- deyə Tramp əlavə edib. ABŞ prezidenti sözügedən çıxışında regionu “Putinin ərazisi” kimi təsvir edib.**

Bəzi təhlilçilərə görə, Trampın bəyanatı birbaşa hüquqi-siyasi iddiadan çox, geosiyasi reallıqların onun üslubunda sərt ifadəsi kimi qiymətləndirilməlidir. Yəni bu ifadə ABŞ-nin rəsmi siyasətini əks etdirmir. Tramp beynəlxalq hüquqdan deyil, faktiki təsir zonalarından çıxış edən realist yanaşmanı üstün tutur, Qafqazda Rusiyanın hələ də güclü təsir imkanlarına malik olduğunu vurğulayır. Bu yanaşma isə region dövlətləri üçün ehtiyat siqnalı rolunu oynayır: geopolitikada bəyanatlardan çox, güc balansı və manevr imkanları önəmlidir.

Məsələ ilə bağlı **Alyans Araşdırmalar Mərkəzinin rəhbəri Abutalıb Səmədov** “Yeni Müsavat”a bildirdi ki, ABŞ prezidentinin sevimli mövzularından biri nail olduğu sülh razılaşmaları barədə eyni fikirləri dönə-dönə təkrar etməkdir. Burada Azərbaycan-Ermənistan münaqişəsinin özünəməxsus yeri var: “Tramp ad çəkmədən 35 illik münaqişəyə son qoyduğunu deyir. Bəzən adı yanlış çəkir. Ancaq bu məsələ tez-tez gündəmə gəlir. Putinlə telefon danışığında onun söylədiyi fikirlərin təkrarlanmasını da çox sevir. Görünür, Putin də Trampın xoşuna gəlmək üçün o ifadələri işlədib. Əslinə qalsa, Putin özü elə hesab eləmir. Hesab edir ki, münaqişə 2020-ci il 10 noyabrda başa çatdı və burada Rusiya həlledici rol oynadı. Ancaq Ukrayna danışıqlarında Trampı öz tərəfinə çəkmək üçün Putin Trampın xoşuna gələcək fikirlər səsləndirir, iltifat göstərir. Bu, bir daha Zelenskiyə dərs olmalıdır. Böyük dövlətlərin rəhbərləri ilə danışıqlar apararkən bəzən bu cür üsullardan istifadə etmək dövlətin maraqlarına xidmət eləyir və bunu siyasətçilər bilməlidirlər. Putinin onun fəaliyyətinə verdiyi qiyməti qabartmaq üçün Tramp bir ifadə də işlədir, Putini Qafqazın sahibi adlandırır. Güman edirəm ki, bu fikir, bu günə aid deyil, daha çox keçmiş dövrə işarədir. Cənubi Qafqazın Rusiyanın təsir zonası olduğunu bir daha diqqətə çatdırmaq cəhdidir”.

Ekspert qeyd etdi ki, 44 günlük müharibəyə qədər, ola bilsin, hətta son illərə qədər Cənubi Qafqazın Rusiyanın təsir zonası sayıldığı heç kimə sirr deyil: “Türkiyə də türk siyasətçiləri Cənubi Qafqazı Rusiyanın arxa bağçası adlandırırdılar. Digər Qərb ölkələri də buna bənzər mövqe nümayiş etdiriblər. Rusiya da bu cür hesab edib. Ümid edək ki, artıq bu gün Tramp Putini Cənubi Qafqazın sahibi hesab eləmir. Baxmayaraq ki, ABŞ-də qəbul olunmuş yeni Milli təhlükəsizlik konsepsiyasında bu cür düşüncələrin ortaya çıxması üçün kifayət qədər əsas var. Həmin konsepsiyada açıq şəkildə yazılıb ki, Amerika ABŞ-nin təsir zonasıdır və digər ərazilərdə ola bilsin ki, başqa dövlətlərin bu hüququ tanınsın. Təbiidir ki, bizi bu baxımdan Cənubi Qafqaz məsələsi narahat edir. Ümidimiz bir tərəfdən ABŞ-nin Zəngəzur dəhlizi ilə bağlı görəcəyi işlərdirsə, digər tərəfdən, Türkiyənin Cənubi Qafqazda rolunun artması Rusiyanın bu bölgədə söz sahibi olmayacağına ümidlərimizi də artırır. Ümid edirik ki, Rusiyanın Cənubi Qafqazda həlledici söz sahibi olması ABŞ və Türkiyə tərəfindən qətiyyən qəbul olunmayacaq və buna imkan verilməyəcək. Cəhdlər olacaqmı? Şübhəsiz ki, olacaq və bu, ilk növbədə Ermənistanda keçiriləcək parlament seçkilərinin nəticələrindən də asılıdır”.

**A.Səmədov hesab edir ki, rusiyayönümlü qüvvələrin Ermənistanda qələbəsi həm Ermənistan üçün, həm də bütövlükdə bölgə üçün ciddi problemlər yaradacaq:** “ABŞ-nin vitse-prezidenti Vensin bölgəyə gözlənilən səfəri, aparılacaq danışıqlar, atılacaq addımlar belə bir ümid yaradır ki, Cənubi Qafqazın Rusiyanın təsir zonası olması fikri bundan sonra qəbul olunmayacaq və Rusiya tədricən Cənubi Qafqazdan çəkilib gedəcək”.

❑ Etibar SEYİDAĞA, “Yeni Müsavat”

**Amerikanın “Stratfor” analitik mərkəzinin 2026-cı il üçün illik proqnozu Ermənistanın baş naziri Nikol Paşinyanı qorxuda bilər. Çünki beyin mərkəzinin proqnozları Paşinyana yaxşı heç nə vəd etmir, hətta Vanqanın dəhşətli gələcək proqnozlarına bənzəyir. Doğrudur, proqnoza görə, Ermənistan ötən il əldə olunmuş sülh razılaşmalarının icrası istiqamətində məhdud addımlar atdığı üçün yeni müharibə riskini azaldıb. Amma “Stratfor”un qiymətləndirməsinə əsasən, Ermənistanın baş naziri Nikol Paşinyan daxili siyasətdə artan ictimai narazılıqla üzləşəcək.**

# Paşinyan haqda “vanqasayağı” qorxulu proqnoz

## Ermənistanın baş naziri mühafizəsini gücləndirib, öz komandasının üzvlərinə belə etibar etmir



Bu narazılığın əsas səbəbləri kimi Azərbaycana ehtimal olunan güzəştlər və erməni kilsəsi ilə gərgin münasibətlər göstərilir. Bildirilir ki, Azərbaycanın yekun sülh sazişinin imzalanması üçün ilkin şərt kimi irəli sürdüyü konstitusiya dəyişikliyi də ölkədə güclü ictimai narazılıq doğurmaqda davam edəcək. Bu səbəbdən, Paşinyanın həmin məsələ ilə bağlı referendumu iyun ayında gözlənilən parlament seçkilərindən sonrakı dövrə təxirə salmağa məcbur olacağı ehtimal olunur.

Analitiklərin fikrincə, əgər Paşinyan yenidən seçilməzsə, sülh sazişinin taleyi daha da qeyri-müəyyən olacaq. Proqnozdan o da aydın olur ki, Rusiya “Tramp yolu” layihəsinin həyata keçirilməsinə mane olmağa çalışacaq, çünki Moskva regionda öz təsirini qorumaq və həm Ermənistanın, həm də Azərbaycanın Qərbə yaxınlaşmasının qarşısını almaq istəyir.

**Məsələ ilə bağlı politoloq Xəyal Bəşirov “Yeni Müsavat”a bildirdi ki, Rusiyanın mövqeyi onsuz da əvvəldən bəllidir. Rusiya Zəngəzur dəhlizinin açılmasını istəmədiyi açıq-aşkar görünür:** “Amma Rusiyanın bu layihənin qarşısını almağa gücü çatacaqmı? Rusiya ”Tramp yolu"nun açılmasına mane olmaq iqtidarındadırmı? Hesab edirəm bu sualın cavabı Moskvanı sevindirəcək cavab deyil. Rusiya “Tramp yolu”nun açılmasının qarşısını ala bilməyəcək. Çünki birincisi, Zəngəzur dəhlizinin açılmasını imzası ilə təsdiqləyən tərəf olub. 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatda Rusiya prezidenti Putin bu dəhlizin açılmasını qəbul etdiyini imzası ilə təsdiqləyib. İkincisi, “Tramp yolu” layihəsi beynəlxalq əhəmiyyətli nəqliyyat-kommunikasiya, logistika qovşağıdır və burada çoxlu sayda dövlətlərin marağı var. Ermənistanda Rusiyanın mövcudluğu hələ ki qalır. Bu baxımdan hesab edirəm ki, Moskva Tramp Yolunun açılmasına Ermənistan vasitəsilə mane olmağa çalışa bilər. Rusiyaya bağlı qüvvələri hakimiyyətə gətirməklə bunu etmək niyyətinə düşə bilər. Lakin bu da Rusiya üçün elə də asan deyil. Çünki rusiyayönlü qüvvələrin Ermənistan cəmiyyətində nüfuzu azdır. Üçüncüsü, Rusiya Donald Trampla hesablaşmaq məcburiyyətindədir. Kreml Trampın adı ilə bağlı olan bir layihənin həyata keçməsi üçün indiki dövrdə ciddi addımlar atmaqdan çəkinər. "Tramp yolu"na mane olmaq artıq Azərbaycana və Ermənistana qarşı addımlar atmaqla yanaşı, ABŞ-yə qarşı addımlar atmaq kimi qəbul olunacaq. Bunu isə Trampın qəbul edəcəyi ehtimalı yoxdur. “Tramp yolu” layihəsi artıq xeyli mərhələni arxada qoyub və bundan sonra Rusiyanın istəsə belə, buna mane ola bilməsi dövrü keçib".

**Ekspert hesab edir ki, Rusiya bundan sonrakı mərhələdə “Tramp yolu”na mane olmaq niyyətlərini və planlarını açıq şəkildə deyil, fərqli formada, başqa qüvvələrin əli ilə həyata keçirmək istəyəcək:** “Rusiya İran vasitəsilə, Ermənistanda hakimiyyəti dəyişməyə nail olmaq vasitəsilə etməyə çalışacaq. Amma istədiyinə nail olacağı ehtimalı çox azdır, hətta sıfıra yaxındır”.

Son 5 ildə Nikol Paşinyanın qorxularının demək olar ki, kosmik həddə çataraq azalmadığı, əksinə, hər keçən gün daha da artdığı müşahidə olunur.

Bu barədə isə “Qraparak” qəzeti yazıb.

Nəşrin məlumatına görə, Paşinyan İrəvan şəhərində və ölkə ərazisində hərəkət edən zaman təkcə iri polis qüvvələri deyil, həm də Milli Təhlükəsizlik Xidmətinin əməkdaşları cəlb olunur, gücləndirilmiş mühafizə tədbirləri tətbiq edilir.

Hətta öz komanda üzvləri ilə görüşlər zamanı belə ciddi təhlükəsizlik qaydalarına əməl olunur. Məsələn, iştirakçıların telefonları toplanır.

Lakin məlum olur ki, təkcə Paşinyan komandasına etibar etmir, komanda üzvləri də ona güvənmir.

Hökumət üzvlərindən əldə edilən məlumata görə, bir müddət əvvəl Nazirlər Kabinetinin iclaslarına mobil telefon olmadan gəlmələri tapşırılıb.

“İclas iştirakçılarının telefonları yığılaraq baş nazirlik binasının girişində yerləşən, supermarketlərdəki bağlanan qutulara bənzər xüsusi seyflərdə saxlanılır. Ancaq çoxları bu qutulara və Paşinyanın özünə etibar etmədiyindən, iclasa gələn nazirlər telefonlarını avtomobillərində saxlamağa başlayıblar. Mənbə bildirib ki, onlar bu müddət ərzində telefonlarının dinləniləcəyindən və ya məlumatların açılacağından ehtiyat edirlər. Ovik Ağazaryanla bağlı hadisəni heç kim unutmayıb və heç kim baş nazirin dürüstlüyünə ümid bəsləmir”.

❑ Etibar SEYİDAĞA, “Yeni Müsavat”

MÜSAVAT
N 4 (8853) 28 yanvar 2026

# Kreml Solovyov və Duqinə sahib çıxdı

## Bu adamların açıqlamaları onların özfəaliyyəti yox, mərkəzdə hazırlanmış məqsədyönlü təxribatdır

**Prezident Administrasiyasının Sosial Proseslərin Monitorinqi və Təhlili İdarəsinin rəhbəri Aleksandr Xariçev Rusiya ilə Qərb arasındakı münasibətlər haqda danışarkən son açıqlamaları ilə postsovet məkanında, eləcə də Azərbaycanda ciddi narazılıq doğuran Aleksandr Duqinin konsepsiyasını sitat gətirib. O, Duqini "görkəmli filosof" adlandırıb. Bu barədə Minval.az saytı yazıb.**

Xatırladaq ki, Duqin bir neçə gün əvvəl postsovet dövlətlərinin, o cümlədən Azərbaycanın suverenliyinə açıq şəkildə qarşı çıxaraq deyib ki, "Moskva Azərbaycan, Ermənistan, Gürcüstan, Qazaxıstan, Özbəkistan və Qırğızıstanın müstəqilliyi ilə barışmamalıdır".

Kremlin başqa bir təbliğat ruporu, telejurnalist Vladimir Solovyov da bir neçə gün əvvəl faktiki eyni imperiya tezislərindən çıxış edərək, adıçəkilən ölkələri "xüsusi hərbi əməliyyatla" hədələmişdi. Rusiya Prezident Administrasiyası rəhbərinin müavini Aleksey Qromov isə Solovyovla bağlı qərar vermək səlahiyyətini öz üzərinə götürüb. Yəni belə anlaşılır ki, Kremlin baş təbliğatçısı ilə bağlı işlədiyi telekanal belə heç bir qərar verə bilməz. Həm Duqinə, həm Solovyova sahiblənməklə o anlaşılır ki, bu adamların açıqlamaları onların özfəaliyyəti yox, mərkəzdə hazırlanmış məqsədyönlü təxribatdır.

**AMİP Ali Məclisinin sədri, politoloq Rəşad Bayramov "Yeni Müsavat"a açıqlamasında Kremlin Duqinə dəstəyini belə qiymətləndirdi:** "Şübhəsiz ki, Aleksandr Xariçevin açıqlaması diqqət çəkir. Xüsusilə də Duqinin postsovet dövlətlərinin, o cümlədən Azərbaycanın suverenliyini açıq şəkildə inkar etdiyi bir vaxtda onu "görkəmli filosof" olaraq təqdim etmək və onun ideoloji çərçivəsinə istinad etmək artıq siyasi mövqedir və bu mövqeni nə ilə pərdələmək mümkün deyil. Bu, artıq neytral akademik müzakirə yox, açıq ideoloji legitimləşdirmə cəhdidir. Məlumdur ki, Aleksandr Duqin uzun illərdir ki, Rusiya imperializminin ideoloji ruporu kimi çıxış edir. Bu baxımdan onun "Moskva postsovet ölkələrinin müstəqilliyi ilə barışmamalıdır" tezisi də təsadüfi emosional bəyanat kimi qəbul edilə bilməzdi. Bu, Rusiyada getdikcə daha açıq şəkildə səsləndirilən neoimperiya doktrinasının xülasəsidir. Odur ki, Duqinin adının Prezident Administrasiyasının yüksək vəzifəli rəsmisi tərəfindən müsbət kontekstdə çəkilməsi Kremlin bu ideologiyaya dəstək verən münasibətinin göstəricisidir".

**Politoloq burada təhlükəli məqam da görür:** "Məsələnin daha təhlükəli tərəfi odur ki, bu ritorika təkcə ideoloqların və marginal fiqurların dili ilə səsləndirilmir. Kremlin əsas təbliğat simalarından biri olan Vladimir Solovyov da postsovet ölkələrini "xüsusi hərbi əməliyyat"la hədələdiyini də unutmamalıyıq. Bu artıq sadəcə söz oyunu deyil, birbaşa zorakılıq çağırışıdır. Daha da diqqətçəkən məqam isə Rusiya Prezident Administrasiyası rəhbərinin müavini Aleksey Qromovun Solovyovla bağlı qərar vermək səlahiyyətini faktiki olaraq öz üzərinə götürməsidir. Bu, Kremlin baş təbliğatçısının toxunulmaz statusa malik olduğunu açıq şəkildə etiraf etməsi deməkdir. Bu kontekstdə Duqin və Solovyov kimiləri müdafiə edənlərin arqumentlərini onların şəxsi fikri kimi qələmə vermək mümkün deyil. Duqinin və Solovyovun yüksək vəzifəli məmurlar tərəfindən təriflənməsi və müdafiə edilməsi Kremlin postsovet məkanına yönəlik məqsədyönlü təzyiq, psixoloji şantaj və ideoloji hazırlıq kampaniyasından xəbər verir. Bu kampaniyanın əsas məqsədi ölkələrin suverenliyini müvəqqəti və şərti bir anlayış kimi təqdim etmək və Moskvanın "iradəsi"nə tabe olmayan dövlətləri legitim hədəfə çevirməkdir. Xüsusilə Azərbaycan kontekstində bu açıqlamalar təhlükəli presedent yaradır. Bir tərəfdən rəsmi Moskva "dostluq", "strateji tərəfdaşlıq" ritorikasını bu və ya digər şəkildə davam etdirir, digər tərəfdən isə Kremlin ideoloji və media resursları Azərbaycanın müstəqilliyini sual altına alan tezisləri sistemli şəkildə dövriyyəyə buraxır. Bu ikili oyun artıq diplomatik ikiüzlülükdən də irəli gedərək açıq təhdid mərhələsinə keçib. Odur ki, Xariçevin Duqinə istinadı və Kremlin Solovyov kimi fiqurlara verdiyi faktiki toxunulmazlıq bir daha göstərir ki, söhbət ayrı-ayrı şəxslərin sərsəm fikirlərindən yox, mərkəzləşdirilmiş və koordinasiyalı siyasi-ideoloji xətdən gedir".




❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# İsrail Xəzərə gəlir - BESA "beyin mərkəzi"nin analizi

## Tel-Əviv Azərbaycanın dəstəyi ilə Orta Asiyanın türk dövlətlərinə çıxış imkanlarını araşdırır

**Begin-Sadat Strateji Araşdırmalar Mərkəzinin (BESA) rəsmi saytında politoloq Andrey Kazantsev-Vaysmanın İsrailin Orta Asiya və Xəzər hövzəsində artan geosiyasi və diplomatik fəallığına həsr olunmuş analitik məqaləsi dərc edilib.**

Məqalədə qeyd olunur ki, Qazaxıstanın "İbrahim sazişləri"nə qoşulmaq qərarı bu balansı dəyişə və İsrailin regiondakı diplomatik mövqelərini əhəmiyyətli dərəcədə gücləndirə bilər.

Kazantsev-Vaysmanın fikrincə, Qazaxıstanın bu addımı İbrahim Sazişlərinin coğrafi əhatə dairəsini Yaxın Şərq və Şimali Afrika regionundan kənara çıxarır və İsrail üçün Orta Asiyanı yeni strateji istiqamətə çevirir. Müəllif vurğulayır ki, bu qərar Astananın İsrail üçün əhəmiyyətini yalnız iqtisadi tərəfdaş kimi deyil, həm də çoxtərəfli diplomatik və sülh təşəbbüslərində əsas oyunçu kimi artırır.

Məqalədə qeyd olunur ki, İsrail-Qazaxıstan yaxınlaşması Azərbaycanla münasibətlərin daha da möhkəmləndirilməsi fonunda baş verir. Kazantsev-Vaysmanın fikrincə, Bakı bir neçə səbəbə görə Tel-Əviv üçün xüsusi strateji əhəmiyyət daşıyır. Azərbaycan İsrailin əsas silah tədarükçülərindən biri hesab olunur. Eyni zamanda ölkə Cənubi Qafqaz və Xəzər hövzəsində İran və Rusiyanı kənarlaşdıran mühüm tranzit marşrutuna malikdir. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın regional təsir imkanları xeyli artıb. Bundan əlavə, İsrail-Azərbaycan iqtisadi əməkdaşlığı texnologiya, enerji və turizm sahələrində dinamik şəkildə genişlənir. Müəllif vurğulayır ki, İsrail Azərbaycanla sıx hərbi, strateji, kəşfiyyat və iqtisadi əlaqələr qurub, Qazaxıstanla münasibətlər isə daha çox çoxtərəfli diplomatiya və "yumşaq əməkdaşlıq" modeli üzərində formalaşır.

Kazantsev-Vaysman hesab edir ki, İsrail Azərbaycan vasitəsilə Xəzər hövzəsindəki layihələrdə fəal iştirak imkanları qazanır, məqalədə Orta Asiyanın türk dövlətlərinin İsraillə əməkdaşlığın dərinləşməsinə müsbət yanaşacağı qeyd olunur. Əgər İsrail-Qazaxıstan tərəfdaşlığı uğurlu modelə çevrilərsə, digər regional dövlətlərin də bu nümunəni izləməsi mümkündür.

Ən perspektivli ssenari kimi İsrailin mövcud C5+1 formatından istifadə etməsi göstərilir. Xatırladılır ki, 2025-ci ildə Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünə qoşulması ilə format C6 səviyyəsinə yüksəlib. Bu isə İsrailin Azərbaycan və Qazaxıstanı da əhatə edən C6+1 mexanizminin formalaşdırılması üçün imkan yaradır.

Müəllifin qənaətinə görə, belə bir format İsrail üçün xüsusilə əlverişlidir, çünki Tel-Əvivin möhkəm və stabil münasibətlərə malik olduğu iki əsas regional tərəfdaşı - Azərbaycan və Qazaxıstan - eyni platformada birləşir.

**Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə şərhçi Fikrət Yusifov "Yeni Müsavat"a mövcud durumu belə şərh etdi:** "İsraildən olan politoloqun bu fikirlərində İsrailin Azərbaycan və Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığının yeni müstəviyə daşınmasından söhbət gedir. Türk dünyası ölkələri bir qayda olaraq onlara normal tərəfdaşlıq çərçivəsində edilən təkliflərə pozitiv yanaşırlar. İsrailin Azərbaycanla əlaqələri yetərincə dərindir. Azərbaycanın son illərdə Mərkəzi Asiya ölkələri ilə yaxınlaşması İsrailin diqqətindən yayınmayıb. Bu səbəbdən İsrail Mərkəzi Asiya ölkələri ilə yeni münasibətlərin qurulmasında Azərbaycanın rolunu yüksək qiymətləndirir. Lakin bu münasibətlərin lazımi səviyyədə qurulmasını təmin edəcək ciddi düşündürücü bir məqam var. Bu da Türkiyə-İsrail münasibətləridir. Bütün hallar üçün Türk dünyası ölkələri ilə yaxınlıq etmək bu iki ölkə arasında münasibətlərin səviyyəsindən bilavasitə asılı olacaq. İsrail tərəfi bu məqamı diqqətdən qaçırmamalıdır.

Nəzərə alaq ki, Avrasiya məkanında dünya nəhəngi ABŞ-nin ən yaxın tərəfdaşları da Türkiyə və İsraildir. Deməli, bu iki ölkə öz münasibətlərində soyuqluq yaradan məqamlar ətrafında ciddi düşünməli və bir-birinə qarşı güzəştə gedərək münasibətləri normallaşdırmalıdır. Bu baş verdikdə Türk dünyası ölkələri ilə İsrail arasında münasibətlər özünün yeni mərhələsinə qədəm qoya bilər".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

## Həbs etdiyi gənclər hansı səfirliyə hücumu planlaşdırıblar?



Xarici ölkənin Azərbaycandakı səfirliyinə qarşı terror hücumu etməyə hazırlaşan şəxslər həbs ediliblər.

Bu barədə Musavat.com-a DTX-nın Mətbuat Xidmətindən məlumat verilib.

Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri zamanı Azərbaycan Respublikasının vətəndaşları - 2000-ci il təvəllüdlü, "Abu Zər əl-Mühacir" dini ləqəbli Quliyev İlqar İlham oğlu, 2005-ci il təvəllüdlü, "Abdurəşid" dini ləqəbli Piriyev Amin Elşad oğlu və 2005-ci il təvəllüdlü "Abdurrahman əl-Azəri" dini ləqəbli Əlizadə Elvin Sənan oğlunun dini düşmənçilik zəminində Bakı şəhərində xarici ölkənin səfirliyinə terror hücumu törətməyə hazırlıq görmələrinə əsaslı şübhələr yaranıb.

Adıçəkilən şəxslər İŞİD terror təşkilatının "Vilayəti-Xorasan" silahlı qruplaşmasının üzvləri ilə cinayət əlaqəsinə girərək, qabaqcadan əlbir olan bir qrup şəxs halında xarici dövlətin Azərbaycan Respublikasındakı səfirliyinə terror hücumu etmək üçün silah qismində istifadə edilən predmetlər əldə edib səfirliyin yerləşdiyi əraziyə yaxınlaşarkən DTX-nin əməkdaşları tərəfindən saxlanılıblar.

Faktla bağlı İlqar Quliyev, Amin Piriyev və Elvin Əlizadə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 28, 214.2.1, 28, 214.2.3 və 28, 214.2.6 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən, silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə, dini düşmənçilik zəminində terrorçuluğa hazırlıq) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilmiş, barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# AMEA-nın 14-cü prezidenti kim ola bilər?

## İsa Həbibbəylinin istefa ərizəsi yazdığına dair məlumatlar təkzib olundu - quruma seçki qaydası və tələblər...




**Sosial mediada Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti İsa Həbibbəylinin istefa ərizəsi yazdığına dair məlumatlar yayılıb. AMEA-dan isə bu iddianı təkzib ediblər. Xatırladaq ki, İsa Həbibbəyli 2022-ci ilin oktyabrında AMEA prezidenti seçilib.**

"Yeni Müsavat" bildirir ki, Mir Əsədulla Mirqasımov Azərbaycan SSR Elmlər Akademiyasının ilk prezidenti (1945-1947)olub. Eldar Salayev isə müstəqil Azərbaycanın AMEA-nın ilk prezidenti (1983-1997) hesab olunur. İndiyədək AMEA-nın 13 prezidenti olub, sonuncu İsa Həbibbəylidir. O, Ramiz Mehdiyevin istefasından sonra - 2022-ci ilin martından bu quruma rəhbərlik edir. Bəs AMEA-da prezident seçkisi necə tənzimlənir, kim seçilə bilər və sairə... Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin 88 və 95-ci maddələrində prezidentin hansı üsullarla seçildiyi və hansı vəzifələri yerinə yetirəcəyi öz əksini tapıb. Həmin müddəaları oxuculara təqdim edirik:

Akademiyanın fəaliyyətinə ümumi rəhbərliyi AMEA-nın prezidenti həyata keçirir.

Akademiyanın prezidenti AMEA-nın həqiqi üzvləri sırasından onun ümumi yığıncağında seçilir və Azərbaycan Prezidenti tərəfindən təsdiq edilir.

Akademiyanın ümumi yığıncağında seçilən prezident Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəsinə təsdiq edilənədək AMEA prezidentinin səlahiyyətlərini icra edir.

AMEA-nın prezidenti akademiyanın ümumi yığıncağında səsvermədə iştirak edən akademiyanın həqiqi üzvlərinin 2/3 səs çoxluğu və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir.

Akademiyanın prezidenti üzərinə qoyulan vəzifələrin icrasına görə şəxsən məsuliyyət daşıyır.

**Akademiya prezidentinin icra etdiyi vəzifələr:**

- Akademiyanın ümumi fəaliyyətini təşkil edir.
- Rəyasət Heyətinin fəaliyyətinə rəhbərlik edir.
- Akademiyanın ümumi yığıncağının və Rəyasət Heyətinin iclaslarına sədrlik edir.

Azərbaycan Respublikasının qanunvericiliyinə və akademiyanın nizamnaməsinə uyğun səlahiyyətlər çərçivəsində akademiyanın müəyyən etdiyi qaydada akademiyanın əmlakı, həmçinin maliyyə vəsaitləri barədə sərəncam verir.

Azərbaycan Respublikasının və xarici ölkələrin elmi və digər qurumlarında akademiyanı təmsil edir, müqavilələr, sazişlər bağlayır, etibarnamələr verir və digər hüquqi hərəkətləri həyata keçirir.

Dövlət büdcəsindən ayrılan maliyyə vəsaitinin akademiyanın elmi, elmi xidmət, təhsil və sosial xidmət müəssisələri arasında Rəyasət Heyəti tərəfindən müəyyən edilən bölgüsünü təsdiq edir.

Qanunvericiliklə müəyyən edilən qaydada xarici ölkələrin elmi müəssisələri, qeyri-hökumət təşkilatları və hüquqi şəxsləri ilə, habelə beynəlxalq təşkilatlarla danışıqlar aparır.

Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə elmi və elmi-texniki məsələlərə dair beynəlxalq müqavilələr imzalayır.

Akademiyanın Rəyasət Heyəti tərəfindən təsdiq edilən mərkəzi aparatın işçiləri ilə və təsdiq olunan nomenklatur çərçivəsində işə qəbul edilən digər işçilərlə əmək müqavilələri bağlayır, müqavilələri ləğv edir, işçilər barəsində qanunvericiliklə müəyyən olunan qaydada mükafatlandırma, həvəsləndirmə və intizam tənbehi tədbirləri görür.

Qanunvericiliyə uyğun olaraq icrası məcburi olan əmr və sərəncamlar verir, normativ hüquqi aktları təsdiq edir, onların icrasını təşkil edir və onlara nəzarəti həyata keçirir.

Elmin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi, monitorinqlərin aparılması, strateji fəaliyyət proqramlarının hazırlanması məqsədilə mütəxəssislərdən ibarət işçi qrupları, eləcə də koordinasiya və idarəetmə şuraları yaradır.

Elm sahəsində dövlət siyasətinin həyata keçirilməsi ilə bağlı təklifləri, qanun və digər normativ hüquqi aktların layihələrini Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir.

Dövlət büdcəsindən ayrılan vəsait və ştat sayı hüdudlarında müəyyən olunan qaydada tabeliyində olan qurumların yaradılması, yenidən təşkili və ləğv edilməsi barədə müvafiq qərarlar qəbul edir.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

❑ **"Yeni Müsavat"**

# İngilisdilli "Kyiv Post"dan anti-Azərbaycan mövqe

## Həftəlik qəzet niyə Əli Kərimli haqda reallıqları təhrif edib?




**Ukraynanın ingilisdilli "Kyiv Post" media resursunda Azərbaycanla bağlı qərəzli yazı dərc olunub. Bu barədə Cebhe.info saytı xəbər verir.**

Məlumat üçün deyək ki, "Kyiv Post" Ukraynada nəşr olunan həftəlik ingilisdilli qəzetdir, həmçinin ingilis və Ukrayna dillərində onlayn versiyası da mövcuddur. Qəzet 1995-ci ildə Kiyevdə Amerika vətəndaşı Ced Sunden tərəfindən təsis edilib.

Bildirilir ki, "Kyiv Post" AXCP-nin hazırda həbsdə olan sədri Əli Kərimlinin həyat yoldaşı Samara Seyidovadan geniş müsahibə yayımlayaraq reallıqları təhrif edib. "Çünki Əli Kərimliyə qarşı irəli sürülən ittihamların nələrdən ibarət olması Azərbaycanda da, beynəlxalq aləmdə də hər kəsə bəllidir. Hamı bilir ki, AXCP sədrinə qarşı Cinayət Məcəlləsinin 278.1 (hakimiyyəti zorla ələ keçirməyə, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirməyə yönələn hərəkətlər) maddəsi ilə ittiham irəli sürülüb. Bu ittihamın nədən qaynaqlandığı, kimlərlə işbirliyinə dayandığı, Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyevlə bərabər qurulan planın uğursuzluğu da kimsəyə sirr deyil. Ramiz Mehdiyev isə Rusiyanın emissarı kimi ölkədə "5-ci kolon"un əsas rəhbəri olub. Onunla işbirliyində olanlar bu gün də axtarışdadır", - deyə sayt yazır.

**O da qeyd olunur ki, Əli Kərimlinin həbsi ilə bağlı beynəlxalq ictimaiyyət yanlış informasiya yayımlanması ilə onun həbsinin motivini təhrif etmək yolverilməzdir:**

"Bu həbsə xüsusi don geyindirməyə çalışmaq, "siyasi məhbus" termini kimi aldadıcı fikirlərin təlqini təkcə ictimai rəyə oynamaq deyil, həm də gedən o qatarın arxasınca baxmaqdır. Burada xüsusi xatırlanmalı məqamlardan biri də Əli Kərimliyə qarşı bu ittihamların müxtəlif zamanlarda, vaxtilə onunla eyni düşərgəni bölüşənlərin səsləndirməsidir. Rəsmi formada hüquqi prosedur olaraq yeni olsa da, ictimai rəydə bu ittihamlar illərlə müxtəlif tribunlardan tirajlanıb. Siyasi kluarlarda və tədbirlərdə, ictimai fikirdə də bu ittihamlar müxtəlif formalarda dəfələrlə deyilib, yazılıb. Ümumiyyətlə, Azərbaycanın siyasi arenasında Əli Kərimliyə münasibət heç bir zaman birmənalı olmayıb. O, özünü real müxalifət hesab etsə də, böyük çoxluq ictimai rəydə onu həmişə Ramiz Mehdiyevin müxalifəti hesab edib. Atdığı bütün addımların, istər müxalifətə, istərsə də hakimiyyətə qarşı qurduğu bütün planların arxasında Mehdiyev izi görünüb. Onun bu planları Mehdiyevin təlimatıyla, onun ssenarisinə uyğun həyata keçirdiyi haqqında fikirlər səsləndirilib. Hətta razılaşdırılmamış etiraz aksiyalarının da təşəbbüskar və təşkilatçısının Mehiyev olduğu ilə bağlı dəfələrlə mətbuatda fikirlər deyilib. Bu mitinq oyununda Kərimlinin sadəcə icraçı funksiyasında olduğu bildirilib. 2019-cu ildə, yəni Ramiz Mehdiyev Prezident Administrasiyasındakı vəzifəsindən uzaqlaşdırılandan sonra mitinq oyunları da finişə çatdı. O zamandan sonra Əli Kərimli bir dəfə də olsun kütləvi aksiya keçirmək niyyətinə düşmədi. Bununla da öz fəaliyyəti ilə boyuna biçilmiş "Mehdiyev müxalifəti" obrazının təsdiqi bir daha üzə çıxdı.

Məlum çevriliş qəsdinin üstü açıldıqdan sonra Əli Kərimli bütün gücü ilə bu obrazda olmadığını iddia etsə də, cəmiyyət buna inanmadı. Danışdıqları isə həqiqət yox, prosesdən yayınmağa göstərilən cəhd kimi qəbul edildi.

Ona görə də Ukraynanın ingilisdilli "Kyiv Post" media resursunun Azərbaycandakı mövcud ictimai rəyə yox, qeyri-obyektivliyin təqdimatına üstünlük verməsi xoş olmayan münasibət və özünün ingilisdilli oxucularına yanlış məlumat ötürməsidir".

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 4 (8853) 28 yanvar 2026

# Bir qocanın sirri: yer altındakı Xamenei...



## İranın azərbaycanlı "Fidel Kastro"su öldürülə bilərmi; Xomeyni niyə məhz Xameneini siyasi varisi seçmişdi?

**Otto Bismarkın məşhur deyimidir ki, inqilabı dahilər düşünür, fanatiklər həyata keçirir, fırıldaqçılar isə ondan faydalanırlar. Tarix inqilablarla zəngindir - Fransadakı burjua inqilabı, sənaye inqilabları, Rusiyada, Kubada sosialist inqilabları... Yəni inqilab varsa, orada mütləq sosialistlərin iştirakı var.**

Lakin tarixdə yeganə və indiyə qədər təkrarı olmayan İslam inqilabı İranda baş verib. Bu inqilabda da tudəçilərin (iranlı solçular - E.S.) müstəsna əməyi var. Hətta demək olar ki, inqilabı onlar etdi, bəhrəsini şəriətçilər gördü. Hər halda, tarixdə adı İran İslam İnqilabı kimi qalıb və bu günə qədər də islamçılar ölkəni idarə edirlər. İndi isə onların qurduğu İran İslam Respublikası süqut təhlükəsi ilə üzləşib - quruluşunun 47-ci ilində...

### Nə Madurodur, nə Səddam...

Bu inqilabçılardan isə sağ qalan yeganə şəxs ayətullah Seyid Əli Xameneidir. Hazırda dünya və Azərbaycan mediası ahıl inqilabçının bunkerdən-bunkerə köçürüldüyünü, ABŞ tərəfindən vurula biləcəyini yazır. İsrail nəşrləri ən təhlükəsiz bunkerlərdən birinin yerləşdiyi və Xameneinin ailəsi ilə birlikdə köçdüyü Lavizan (Tehranın şimal-şərqi) adlı xüsusi bir əraziyə işarə edib. Bu bunkerlər şəbəkəsi SEPAH tərəfindən inşa edilib və təxminən 90-100 metr dərinlikdə yerləşir. Xameneinin gizləndiyi bunker Fordo nüvə stansiyasından daha təhlükəsiz hesab olunur və bombaların birbaşa zərbələrinə davam gətirmək üçün nəzərdə tutulub. Nə qədər səhih xəbərdir, bunu demək çətindir, amma qoca inqilabçının bunkerdə olduğu haqda iddialar sürətlə tirajlanır. ABŞ lideri Tramp isə hərbi gəmilərin İrana yaxınlaşdığını bildirib. Ancaq nəzərə almaq lazımdır ki, İranın ali rəhbəri nə Madurodur, nə Qəddafi, nə də Səddam...

Onun İranda yüzminlərlə sevəni, aşiqi, şiə fədailəri var. Yəni yuxarıda adı keçən liderlər ideologiyasız fiqurlar idi, Xamenei isə İslam inqilabçısıdır. Bəs necə oldu ki, inqilabın lideri Xomeyni Xameneini siyasi varisi elan etdi? Axı onu Şəriətmədari, Tələqani kimi nüfuzlu İslam alimlərindən fərqləndirən nə idi? Nə üçün bir azərbaycanlı Şəriətmədari yox, azərbaycanlı Xamenei siyasi vəliəhd oldu?

### Sağ qolu iflic olan inqilabçı

Seyid Əli 1939-cu il, aprelin 19-da Məşhəddə doğulub. Əslən Ərdəbilin Xamnə kəndindəndir. Xamenei mərceyi-təqliddir, yəni 12 imam əqidəsində olan insanlar tərəfindən qəbul edilən müctəhidlərin siyahısındadır. Siyahıda nüfuzlu İraq ayətullahı Sistani, həmçinin Şəriətmədarinin özü, Fazil Lənkərani, əl-Fəyaz və başqaları var.

Xamenei 1989-cu ildən bu yana vəzifədə olan İranın ikinci və hazırkı ali rəhbəridir. 1981-1989-cu illərdə İran prezidenti olub. Xamenei Yaxın Şərqdə ən uzun müddət xidmətdə olan dövlət başçısıdır, eyni zamanda ötən əsr şah Məhəmməd Rza Pəhləvidən sonra ən çox vəzifədə olan İran lideridir.

Xamenei şahın dövründə üç il sürgünə göndərilmədən əvvəl altı dəfə həbs edilib. İnqilabdan sonra 1981-ci ilin iyun ayında sağ qolunu iflic edən sui-qəsdin hədəfinə çevrilib. O, 1980-ci illərdə İran-İraq müharibəsi dövründə İranın liderlərindən biri idi və özünün nəzarət etdiyi indiki güclü İnqilab Keşikçiləri ilə sıx əlaqələr qurmuşdu. İnqilab Keşikçiləri ona qarşı olan müxalifəti yatırmaq üçün istifadə edilirdi. Xamenei 1981-ci ildən 1989-cu ilədək İranın üçüncü prezidenti vəzifəsini icra edərkən, ilk ali rəhbər Ruhullah Xomeyninin yaxın müttəfiqi olub. Ruhullah Xomeyninin ölümündən bir müddət əvvəl seçdiyi varislə - Hüseynəli Müntəziri ilə fikir ayrılığı varıydı, buna görə Xomeyni öldükdə varisin kim olacağı barədə razılıq da yox idi. Mütəxəssislər Məclisi 4 iyun 1989-cu ildə 49 yaşındakı Xameneini növbəti ali rəhbər seçir. Əkbər Haşimi Rəfsəncaninin dediyinə görə, Xomeyni ölümündən əvvəl onu varisi seçmişdi. Onu da qeyd edək ki, Xamenei 14 aprel 1979-cu ildən bəri "Astan Quds Razavi"nin xidmətçilərinin rəhbəridir.

### Atom bombasına qarşı fətva

Ali rəhbər olaraq Xamenei İslam Respublikasında ən güclü siyasi səlahiyyəti olan şəxsdir. O, İran dövlətinin başçısı, İran silahlı qüvvələrinin baş komandanıdır. Xamenei həmçinin fərmanlar imzalama və iqtisadiyyat, ətraf mühit, xarici siyasət, təhsil, milli layihələndirmə kimi bir çox sahələrdə hökumətin əsas siyasətlərinə dair son qərarı vermə səlahiyyətinə sahibdir. İranın nüvə proqramı ilə əlaqəli olaraq, Xamenei 2003-cü ildə hər cür kütləvi qırğın silahının istehsalını, yığılmasını və istifadəsini qadağan edən fətva verib. Xameneinin hakimiyyəti dövründə 1994-cü il Qəzvin etirazları, 1999-cu il iranlı tələbə etirazları, 2009-cu ildə prezident seçkiləri etirazları, 2011-2012-ci il etirazları, 2017-2018-ci il etirazları və 2018-2019-cu il etirazları kimi bir sıra böyük nümayişlər olub. Ancaq hamısını qəddarlıqla yatıran rejim öz ömrünü uzada bilib. Bu dəfə necə olacaq - bax, sual budur.

**...Xameneinin öz dediyinə görə, uşaqlığı yoxsul keçib:** "Atam məşhur ruhani olmasına baxmayaraq, sadə və yoxsul yaşayırdıq. Bəzən evimizdə şam yeməyi olmadığından anam bizə kişmişlə çörək yedizdirərdi". **Xamenei doğulduğu ev haqda isə belə deyib:** "Ev Məşhədin yoxsul bir məhəlləsində yerləşirdi. 60-70 metrlik bir otaq və qaranlıq bir zirzəmidən ibarət idi. Atamın yanına qonaqlar gələrkən (atam ruhani və məhəlləmizin mərceyi-təqlidi olduğu üçün adətən evimiz gediş-gəlişli olardı) onlar gedənə kimi hamımız zirzəmidə qalardıq. Atama rəğbəti olan bir neçə nəfər evimizin kənarında kiçik bir yer alaraq evimizə əlavə etdilər. Bununla da evimiz genişlənərək üçotaqlı oldu".

### İki yol: ya atasının gözləri, ya da...

Ayətullah Xamenei 18 yaşlarında Məşhəddə olarkən yüksək dərəcəli fiqh və üsul elmlərinə daha dərindən yiyələnmək üçün mərhum ayətullahül-üzma Milaninin yanında dərsə başlamışdı.

Qum elmiyyə hövzəsində fiqh, üsul və fəlsəfə elmlərinə ən yüksək səviyyədə yiyələnmiş, mərhum Ayətullahül-üzma Bürucerdi, İmam Xomeyni, Şeyx Mürtəza Hairi Yəzdi və Əllamə Təbatəbai kimi böyük ustadlardan bəhrələnmişdir. 1343-cü ildə isə atası keçirdiyi göz xəstəliyindən görmə qabiliyyətini itirir. Bu səbəbdən, Xamenei təhsilini yarıda qoyub, Məşhədə qayıtmalı olur. O, bu barədə belə deyir: "Məşhədə qayıtdım, Allah-Taala müvəffəqiyyətimi daha da artırdı. Çünki Məşhədə qayıtmaqla boynumda olan vəzifəni yerinə yetirmiş oldum. Həyatda qazandığım hər bir uğur ata-anama etdiyim xidmətin bəhrəsidir".

Xamenei iki yol arasında qalmışdı: Qumda qalıb təhsil almaq və ya Məşhədə dönüb, "mirvari suyu"ndan görmə qabiliyyətini itirmiş atasına xidmət etmək. Amma o, Məşhədə qayıtmağı seçdi. Bəzi ustadlar onun hövzəni yarıda qoyub tərk etməsinə təəssüf edirdilər. Çünki qalsa idi, gələcək üçün daha çox şey əldə edəcəyini güman edirdilər. Amma ata-anasına xidmət üçün təhsilini yarıda qoyub, Qumdan Məşhədə gələn 25 yaşlı bu istedadlı gənc oğlanın elə 25 il sonra müsəlmanların rəhbərlik məqamına çatacağına kim inanardı?!

### Altı dəfə həbs və sürgünlər

Xomeyni şahın qeyri-islami və amerikapərəst siyasətinə qarşı etiraza başlamışdı. Xamenei 16 il Xomeyni ilə çiyin-çiyinə mübarizə meydanlarında iştirak edir, işgəncə, sürgün və zindanda olduğu vaxtlarda da mübarizədən yorulmur, bu yolda başına gələcək heç bir təhlükədən qorxmurdu. İlk dəfə o, Məhərrəm ayında Xomeyninin müraciətini, şahın Amerika siyasətini, İranın acınacaqlı vəziyyətini ifşa etmək yollarını ayətullah Milani və digər Xorasan alimlərinə çatdırmaq üçün ezam olunur. Bu müraciəti çatdırdıqdan sonra Bircənd şəhərinə yollanır və orada Amerika və şah rejimini ifşa etməklə məşğul olur. Bu səbəbdən Məhərrəm ayının 9-u tutularaq bir gecəlik həbsxanada saxlanılır. Lakin səhəri gün minbərə çıxmamaq və nəzarət altında qalmaq şərtiylə azadlığa buraxılır. Qanlı 15 xordad hadisəsindən sonra yenidən həbs edilərək, Bircənddən Məşhəd şəhərinə gətirilir və 10 gün müddətində ən ağır şəraitdə işgəncə və əziyyətlərlə məruz qalaraq həbsxanada saxlanılır.

Sonra Zahidan tutulur. Ardınca Tehranda bir il gizli yaşamasına baxmayaraq yenə həbs olunur. Xamenei növbəti dəfə SAVAK tərəfindən tutularaq ağır işgəncələr görür. Nəhayət, 6-cı dəfə tutulanda İranşəhrə sürgün edilir.

İslam inqilabı ərəfəsində Xomeyninin Parisdən Tehrana gəlişindən bir qədər əvvəl Mütəhhəri, Behişti, Rəfsəncani kimi nüfuzlu şəxslərin iştirakı ilə İslam İnqilabı Şurası təşkil olunur. Xamenei də Xomeyninin göstərişi ilə bu şuraya üzv seçilir.

### Qələbədən sonra sui-qəsd

**Xamenei 1981-ci ildə Əbuzər adına məsciddə çıxış edən zaman münafiqlər və düşmənlər tərəfindən ağır yaralandı. Bu hadisədən sonra Xomeyni onun barəsində belə buyurub:** "Mən əziz Xameneiyə təbrik deyirəm ki, müharibə meydanında hərbi geyimdə, arxa cəbhədə isə ruhani geyimdə bu məzlum millətə xidmətə edir. Allahdan sizin üçün sağlamlıq istəyirəm ki, İslam və müsəlmanlarına xidmətinizi davam etdirəsiniz".

İslam inqilabının banisi Xomeyninin 1989-cu ildə vəfatından sonra "Xübrəqan" məclisi (Xübrəqan-müctəhidlərdən ibarət alimlər məclisidir) tərəfindən Əli Xamenei İslam inqilabının rəhbəri seçilir. Görəsən, Xomeyninin təbirincə desək, Xamenei bu dəfə "müharibə meydanında hərbi geyimdə, arxa cəbhədə isə ruhani geyimdə" Trampa qalib gələ biləcəkmi...

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"ın redaktoru**

MÜSAVAT
N 4 (8853) 28 yanvar 2026



# Ağlamalı kino

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud teatrımız bələdiyyənin vəziyyətində

**Ət istehsalında azalma olsa da, mədəniyyət istehsalımız daim inkişaf edir. Burada Braziliyadan dana əti almaq kimi proseslərə hələlik ehtiyac duyulmur. Ona görə də təzəlikcə kino qanununa dəyişiklik edildi, orada milli və xarici prodüser anlayışlarına fərq qoyuldu. Sən demə, indiyəcən kino qanunumuzda yerli prodüser anlayışı yazılmayıbmış! Dəhşətdir. Mən də deyirəm niyə milli kinomuz xarici ekranlara çıxa bilmirdi. Son dəqiqədə aldığım məlumata görə Amerikada həbsdə olan prodüser Harvi Vaynşteyn Azərbaycan kinosunda yerli və xarici prodüserlərin fərqinin qanuna salınmağını eşidəndə həbsxana müdirini çağırıb, karserə salınmağı xahiş edib.**

Əslində bu dəqiqə bütün dünya kinosu böhran yaşayır və bunu xilas eləmək bizim kinoçəkənlərin borcudur. 2026-cı ilin "Oskar"ına namizəd filmlərin bəzisinə baxandan sonra Vaqif Mustafayevin axırıncı filminə şükür eləmişəm. Misal üçün, tarixi rekorda - 16 nominasiyaya layiq görülən (inşallah, heç birisini almaz) "Günahkarlar" filminin qısa süjeti belədir ki, iki zənci qardaş kafe açır, yeyib-içməyin qızğın vaxtında vampirlər kafeyə basqın edir, hamını dişləyirlər. Axırda da Günəş çıxır, vampirlər yanır. Vallah, şişirtmə eləmirəm, kino aşağı-yuxarı təxminən bundan ibarətdir. Biabırçı bir "əsərdir".

Xortdanın nağılına 16 Oskar verirsənsə, gərək mükafatın adını dəyişəsən. Müəyyən hərfləri yerində saxlamaq şərtilə.

"Sirat" adlı film var, qəhrəmanlar o qədər tez-tez minaya düşüb partlayırlar ki, bilmirsən bu dramadır, yoxsa komediyadır, rejissor məzələnirmi...

Ta sinəmiz açılıb, birini də yazaq. Yoahim Triyer adında rejissorun "Sentimental dəyərlər" filmi son ilin seçilən filmlərindəndir. Filmdə ata 2 qızını uşaq vaxtı atıb, Norveçdən çıxıb gedib İsveçə. İndi qızlar böyüyüb, ata də rejissordur, gəlib qızını kinoya çəkir. Filmdə qəmli musiqi verilir, qızlar ağlaşır, ata infarkt olur, təzədən durur, yenə ağlaşırlar və sairə. Filmdə axan göz yaşlarını toplasan Əhmədliyə yayda su vermək olar. Elə bil Xoşqədəmin verilişidir, Rusiyadan qız gəlib Ağdaşda papasını tapıb, ağlaşırlar. (Bu, real əhvalatdır, təzə olub və qətiyyətlə yazıram ki, Xoşqədəmin həmin verilişi Yoahim müəllimin filmindən min dəfə abırlıdır).

Hələ Amerikada bir film də var, hamilə qadın pulemyotu götürüb Rembo kimi "ta-ta-ta" atır.

Əlbəttə, keçənilki mükafatları süpürləyib aparan film iki fahişənin mənasız həyatından bəhs edirdisə, indi bacıların ağlaşması rekorda haqq edir. ("Ölülər"dən Şeyx Nəsrullahın sitatının əsl yeridir: "Bacılar hanı? Bacıları görmürəm"). Ümumiyyətlə, dünya kinosu üçün çətin günlərdir. Bir ölkənin prezidenti başqa ölkənin prezidentini kartof kisəsi kimi qulaqlayıb aparırsa, Hitlerin varisi Kiyevdə "faşist" axtarmaq adıyla camaatı qırırsa, lap elə yarasa soyutması üzündən planetin qapıları bağlanırsa, belə bir tarixi dönəmdə hansı kinonu çəkmək olar ki, camaatda maraq oyatsın? Mümkün deyil. Hələ süni intellekt adlı axmaq təbiq işin lap zibilini çıxartmaqdadır, at izi it izinə qarışıb.

Keçən il bir çox manıs və aktyorlar, teatr işçilərimiz bəyanat vermişdilər, deyirdilər həyatımız üçün təhlükə var, qorxuruq. Onları qorxudan isə elə sahəyə məsul məmurlar idi. Qorxu filmi üçün yaxşı süjet idi. Amma nədənsə dövlət büdcəmizdən... skiflər haqqında tarixi serial çəkilməsinə vəsait ayrılmışdır. 800 min manata yaxın pul verirlər. Guya biz skiflərin kim olduğunu dəqiqləşdirmişik, indi də filmini çəkirik. Ondansa AXC-Müsavat cütlüyü haqqında çəkin, onların dövrü skiflərin dövründən maraqlı idi.

Nəhayət, son günlərin əsas islahatçı addımı teatrlarda baş rejissor, baş rəssam, bədii rəhbər kimi vəzifələrin ləğvi oldu. Çünki baş rejissorlar əsas qalmaqal subyektləri idilər. Gah aktyor və aktrisalarla saçyolduya çıxırdılar, gah tamaşaçılarla. Hökumət də çıxış yolunu vəzifəni dibindən ləğv eləməkdə tapdı. Bu, eyni zamanda aktrisalara mesajdır: sakit olmasanız, teatrı tam bağlayarıq.

Çox mümkündür. Həyat teatrdan daha maraqlıdırsa, bunun işləməyi nəyə lazımdır?

Əslində hökuməti saxlayıb bizim hamımızı ləğv eləmək lazımdır. Prinsipcə, bu istiqamətdə uğurlu addımlar var: keçən il müstəqillik dövrümüzün ən aşağı uşaq doğumu qeydə alınıb. Yoxsa bəziləri durmadan zəvzəyirdi: "uşaq pulu, uşaq pulu..." Al gəldi! Uşaq olmayandan sonra uşaq pulu kimə veriləcək?

**Bu həftə Azərbaycana səfər edən NATO baş katibinin müavini Radmila Şekerinşka Azərbaycanın Avropanı Rusiyadan enerji asılılığından necə xilas etdiyindən də bəhs edib.**




# NATO-dan Bakını qorumaq vədi

## Alyans müttəfiqlərinə enerji asılılığını aradan qaldırmaqda əhəmiyyətli dəstəyinə görə Azərbaycana minnətdardır; dəniz limanının təhlükəsizliyi və vacib infrastrukturun qorunması müzakirələri Rusiyadan yeni təhdid gözləntilərini aktuallaşdırıb

"Azərbaycan NATO müttəfiqlərinə əvvəlki enerji asılılığının aradan qaldırılmasında çox faydalı, qətiyyətli və əhəmiyyətli dəstək göstərib. Rusiyadan enerji təchizatından imtina etməklə, onları Azərbaycandan təchizatla əvəz edə biliblər. Bu, əsas əhəmiyyət kəsb edən enerji təchizatımızın təhlükəsizliyini təmin edib. Bu addımlar çox hörmətlə qarşılanır və qiymətləndirilir", - deyə NATO rəsmisi bəyan edib. O deyib ki, bu, Azərbaycana etibarlı enerji mənbəyi və etibarlı tərəfdaşımız kimi nüfuzunu bir daha vurğulamağa imkan verir. Bundan sonra dedikləri isə daha çox maraq doğurub. "Məhz buna görə də minaların təmizlənməsinə dəstək, dəniz limanının təhlükəsizliyi və vacib infrastrukturun qorunması kimi məsələləri müzakirə edirik. Bütün bunlar gələcək əməkdaşlıq üçün yaxşı zəmin yaradır və mən inanıram ki, bu tərəfdaşlıq həm Azərbaycan, həm də NATO üçün faydalı olacaq", - deyə o, AZƏRTAC-a verdiyi müsahibədə qeyd edib.

Qeyd edək ki, 2026-cı ildə Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) ilə Azərbaycan Respublikası arasındakı strateji dialoq həlledici mərhələyə qədəm qoyub. Qlobal güc mərkəzləri arasındakı rəqabətin kəskinləşdiyi dövrdə Cənubi Qafqaz regionu Avro-Atlantik məkanın təhlükəsizlik arxitekturasının ayrılmaz komponenti kimi çıxış edir. Rəsmi Bakının yürütdüyü çoxvektorlu, milli maraqlara söykənən və müstəqil xarici siyasət kursu Qərb institutları tərəfindən yüksək qiymətləndirilir. Alyans rəsmilərinin ritorikası, diplomatik təmasların intensivliyi onu deməyə əsas verir ki, Azərbaycan artıq regionun şəriksiz lideri və etibarlı təhlükəsizlik tərəfdaşı statusunu tam şəkildə təsbit edib.

Bu strateji yaxınlaşmanın ən bariz nümunəsi kimi, 2026-cı ilin yanvar ayında NATO Baş katibinin müavini Radmila Şekerinskanın Azərbaycana reallaşan rəsmi səfərini xüsusi qeyd etmək zəruridir. Sözügedən səfər, sadəcə, protokol xarakteri daşımır, əksinə, tərəflər arasındakı münasibətlərin dərinliyini və gündəliyin zənginliyini nümayiş etdirir. Səfər çərçivəsində Radmila Şekerinskanın Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, Milli Məclisin sədri Sahibə Qafarova və Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovla keçirdiyi görüşlər siyasi dialoqun miqyasını göstərən mühüm indikatorlardır.

Enerji təhlükəsizliyi faktoru NATO-Azərbaycan münasibətlərinin əsas sütununu təşkil edən həlledici məsələlərdən sayılır. Rusiya-Ukrayna müharibəsindən sonra Avropanın enerji xəritəsinin yenidən cızılması prosesində rəsmi Bakı lider rolunu oynayır. Avropa İttifaqı və NATO üzvü olan dövlətlərin enerji təchizatında yaranan boşluqların doldurulmasında Azərbaycan qazının və gələcəkdə "Yaşıl Enerji" dəhlizi vasitəsilə ixrac ediləcək elektrik enerjisinin rolu danılmazdır. Xəzər dənizinin dibi ilə Qara dənizə, oradan isə Avropaya uzanacaq elektrik kabeli layihəsi Alyansın enerji təhlükəsizliyi doktrinası ilə tam uzlaşır.

**Deputat Elşad Musayevin "Yeni Müsavat"a bildirdiyinə görə, Azərbaycan Avropanın enerji təminatında rolunu artırır və bu da NATO-ya üzv olan Qərb dövlətləri üçün mühüm amildir:** "Çünki Avropa Rusiyadan enerji asılılığını minimuma endirir. Biz bilməliyik ki, bundan sonra Rusiya öz neft-qaz məhsullarını Avropaya əvvəlki həcmdə sata bilməyəcək. Avropa Komissiyasının qəbul etdiyi qərarlar kritik addımlardır və Qərblə Rusiyanın "körpüləri uzunmüddətli yandırılır". Bu da hər iki tərəfi alternativlər axtarmağa məcbur edir. Rusiya Çin, Hindistan, Vyetnam, Şimali Koreya bazarına çıxır, Avropa isə Azərbaycan, Türkmənistan və digər ölkələrlə əməkdaşlığı gücləndirir. Enerji təminatı isə təhlükəsizlik məsələsidir. Ona görə NATO üçün böyük əhəmiyyətə malikdir. Odur ki, belə bir proksi savaş və iqtisadi rəqabət mühitində Azərbaycanın enerji mallarını alan Qərb, həm də bizə siyasi dəstəyini verməlidir".

**Deputat Azərbaycanın Türkiyə kimi NATO üzvü olan müttəfiqini qeyd edərək, Rusiyanın getdikcə zəiflədiyini və təhdid etməklə hər hansı nəticə qazanmayacağını düşünür:** "Bizim üçün Şuşa Bəyannaməsi var və istənilən xarici təhdidə qarşı birgə mübarizəni ehtiva edir. Ona görə NATO bizə qarantiya olmaya bilər, özümüz kifayət qədər ağıllı siyasət yürüdürük. Cənab Prezident son müsahibəsində deyib ki, bizə risklər daxildən yox, xaricdən ola bilər. Bu da regional əməkdaşlıq imkanlarını dağıdıb bölgədə qeyri-sabitlik yaratmaq istəyənlərin arzusudur. Ancaq Azərbaycan və Türkiyə Cənubi Qafqazın sabitlik arxitekturasını qurur. Bu da NATO üçün mühüm haldır. Alyans maraqlıdır ki, Rusiya regionda qala bilməsin".

**Professor Qabil Hüseynli**nin fikrincə, Azərbaycan NATO üzvü olmasa da, üzv ölkələrlə tərəfdaşlıq əlaqələrini gücləndirir. Onun sözlərinə görə, rəsmi Bakının Ukraynaya humanitar yardımı da yüksək qiymətləndirilir. Ancaq politoloq hesab etmir ki, bu addımlar Rusiya əleyhinə yönəlib və Azərbaycan strateji seçim edib: "Bizim öz müstəqil siyasətimiz var və milli maraqlara söykənir. Əgər bu maraqlara Avropadan zərər olacaqsa, ona da həmişə etirazımızı bildirmişik. Bəzən qonşu ölkələr Azərbaycanı İsrail, yaxud NATO ilə əməkdaşlıqda ittiham edirlər. Amma zaman göstərir ki, bu əlaqələr heç zaman qonşu dövlətlərin əleyhinə yönəlməyib. Əgər Azərbaycan Avropanın enerji təminatında mühüm rol oynamağa başlayıbsa, bunun günahını Rusiya özündə axtarmalıdır. Yəni işğalçı müharibə həyata keçirməsəydi, bu gün "Şimal axını-1" və "Şimal axını-2" layihələri sürətlə reallaşacaqdı, nəticədə Qərbin Rusiyadan enerji asılılığı qalacaqdı. Ona görə də yaranmış reallıqda NATO da Azərbaycanın bu dəstəyini dəyərləndirməli və azad olunmuş ərazilərin bərpasında köməyini artırmalıdır".

**Q.Hüseynliyə görə, ərazilərin minalardan təmizlənməsi, sərhəddə mühafizənin gücləndirilməsi üçün müasir texniki avadanlıqların verilməsi və digər istiqamətlərdə Azərbaycana dəstək verilə bilər:** "Bu gün işğalın vurduğu zərərin aradan qalxması üçün daxili resurslardan istifadə olunur. NATO ölkələri postmüharibə dövründə Ukrayna şəhərlərinin bərpası öhdəliyini götürübsə, ilk növbədə Azərbaycan şəhərlərinin də qurulmasında dəstək verməlidirlər. Çünki Ukrayna kimi biz də işğala məruz qalmışdıq. İndi Avropanın enerji təminatında Azərbaycanın rolu vurğulanırsa, alyans da öz üzərinə düşən missiyanı yerinə yetirməlidir".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

**Ermənistan parlamentinin spikeri Alen Simonyan 2026-cı il parlament seçkilərindən sonra müxalifətdəki Daşnaksütyun partiyasının “kitabını bağlayacağına” söz verib.**

# Daşnaksütyunun sonu

## Ermənistanda terror külələri əsdirən partiyaya qarşı plan hazırlanıb; **ermənişünas alim:** “Ermənistan faşist təşkilatlardan xilas olmalıdır”






“Yeni Müsavat” bildirir ki, müxalifətin “Tramp marşrutu” (TRIPP) layihəsi ilə bağlı mövqeyini şərh edən Simonyan, “Hayastan” fraksiyasının millət vəkili və Daşnaksütyunun üzvü Armen Rustamyanı layihənin mahiyyətini təhrif etməkdə günahlandırıb. **Simonyan bildirib:** “Bu cür təhriflər və manipulyasiyalar yalnız Daşnaksütyun, Armen Rustamyan kimi biri üçün xarakterikdir. Problem ondadır ki, bu insanlar üçün siyasi mövcudluq yalnız faciə, müharibə və ağrı fonunda mümkündür. Hər hansı bir paytaxtdan asılı olmayan suveren və azad Ermənistan onların ən böyük qorxusudur. Onda onlar xarici strukturlarından istifadə edə bilməyəcəklər və ya sadəcə siyasi arenada mövcud ola bilməyəcəklər”.

Ermənistan hakimiyyəti daşnakların hər an terrora əl ata biləcəyini yaxşı anlayır. 44 günlük müharibədən sonra ölkədəki radikallar dəfələrlə Paşinyanı terrorla hədələyiblər. Həm də Ermənistanda terror təcrübəsi bütün dünyaya məlumdur. Bu səbəbdən rəsmi şəxslər, xüsusən də Nikol Paşinyan təhlükəsizlik tədbirlərinə daha çox önəm verirlər. Müharibədən sonra 17 min avtomat silahın yoxa çıxması faktı da Ermənistanda hər an fors-major situasiyanın yarana biləcəyini deməyə əsas yaradır. Təsadüfi deyil, ki, yanvarın 27-də Ermənistanın baş naziri Nikol Paşinyanın təhlükəsizliyini təmin etmək üçün Yerablur hərbi panteonunda snayperlər yerləşdirilib. Ermənistanın NEWS.am saytı snayperlərin yüksək vəzifələr tutmasının eksklüziv görüntülərini yayıb. Paşinyanın Yerablur hərbi panteonunda olduğu və çoxlu sayda təhlükəsizlik işçisinin əhatəsində məzarların üstünə gül dəstələri qoyduğu görünür. Qeyd edək ki, bir neçə gün əvvəl Ermənistan Milli Məclisi yanvarın 27-nin Vətən uğrunda canından keçənlərin anım günü elan edilməsi haqqında qanun qəbul edib və Paşinyan da məhz bununla bağlı Yerablura gəlib. Seçkiöncəsi hakimiyyətin əsas namizədi ciddi sürprizlərlə üzləşə biləcəyini təxmin edir. Ötən il hakimiyyət çevrilişi və sui-qəsd hazırlığında şübhəli bilinənlərin ifşası da çox şey deyir. Üstəlik, bu proseslərdə kilsə də yer alır. Hesab olunur ki, kilsə səddini aşdıqdan sonra Paşinyanın növbəti hədəfi məhz daşnaklardır. Beləliklə, bölgənin ən qanlı partiyası ilə haqq-hesab zamanı yetişib.

Ermənistanın baş naziri Nikol Paşinyan daşnakların bu ilin yayında keçiriləcək seçkilərdə iştirakının şübhə altına alına biləcəyini qeyd etmişdi. Ermənistanın siyasi palitrasında radikal və ekstremist yönümlü partiyaların başında gələn Daşnaksütyun (Erməni İnqilab Federasiyası) artıq bir neçə onillikdir ki, regionda sülhə mane olan əsas ideoloji və siyasi aktorlardan biri kimi çıxış edir. Bu təşkilat yalnız Azərbaycan və Türkiyəyə qarşı düşmən ritorikası ilə deyil, həm də 20-ci əsrin əvvəllərindəki qanlı hadisələrdəki rolu, silahlı dəstələr vasitəsilə həyata keçirdiyi terror aktları və separatizm çağırışları ilə tanınır. Şübhəsiz ki, belə bir qadağanın rəsmi şəkildə həyata keçirilməsi Azərbaycan və Türkiyənin maraqlarına tam uyğun gələcək. Sirr deyil ki, Azərbaycan və Türkiyə ilə sülhə ən böyük əngəllərdən biri məhz faşist xislətli daşnaklar və onların himayə etdiyi qüvvələrdir. Görünən budur ki, Ermənistanda terror külələri əsdirən partiyaya qarşı plan hazırlanıb. Bəs onsuz da ciddi problemlərlə üz-üzə qalmış Paşinyan bu əngəli aradan qaldıra, Daşnaksütyunu bu dəfə həmişəlik bağlaya bilərmi?

**Ermənişünas alim, Türkiyənin Erciyes Universitetinin professoru Qafar Çaxmaqlı “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, ümumən götürəndə Daşnaksütyun partiyasının siyasi çəkisi Ermənistanda yüksək deyil və o, hansısa siyasi birləşmənin içərisində öz varlığını sürdürmək yolunu seçib:** “İndi "Hayastan" fraksiyasının tərkibində bir neçə fəal deputatı var. Onların ən fəalı Armen Rustamyan və Artsvik Minasyandır. Onlar bəzən Paşinyan hakimiyyətinə “başağrısı” verir. Həm də bu partiya əsasən diaspor quruluşu olduğundan hakimiyyət onlardan xilas olmaq və xaricdən müdaxiləni imkan daxilində minimuma endirmək tədbirləri görür. Ter-Petrosyan hakimiyyəti illərində bu partiyanın fəaliyyəti Ermənistanda qadağan olunmuşdu. Köçəryan və Serj Sərkisyanın da baxışları milliyyətçi və şovinist ruhlu olduğundan daşnak partiyasına fəaliyyət imkanları verildi. Ermənistanda bu gün hakim “Vətəndaş müqaviləsi” üzvləri tez-tez bu partiyanın pozuculuq və ölkədə revanşizmi təbliğ edən fəaliyyətini kəskin tənqid edən çıxışlar edir. Alen Simonyan da bunlardan biridir. Mətbuatda və sosial şəbəkələrdə daşnakların tarixi keçmişi də qabardılır".

**Araşdırmaçı alim qeyd etdi ki, tarixdə bu partiya terrorçu xarakteri açıq olan siyasi birlik kimi təqdim edilir**: “1890-cı ildə Tiflisdə qurularkən də Erməni İnqilabçı Federasiyası terrorçu partiya kimi ortaya çıxmışdı. Hətta indi də qabardılır ki, bu partiyanın proqramında siyasi məqsədlərə çatmaq üçün silahlı üsyan və terror istisna edilmirdi və ortaya çıxmasından bu günə qədər terror hərəkətlərinin sayı-hesabı yoxdur. 1918-20-ci illərdə Ermənistanda hakimiyyətdə olan bu partiya ölkədə Azərbaycan türklərinin qovulması, deportasiyası siyasətini həyata keçirdi. 1919-cu ildə bu partiyanın qərarı ilə "Nemezis" terror təşkilatı yaradıldı və həm Osmanlı böyüklərinə, həm də Azərbaycan Xalq Cümhuriyyətinin xadimlərinə sui-qəsdlər təşkil edildi. Əsrin sonlarında yaradılan ASALA və başqa adlarla qanlı cinayətlər törətmiş terror təşkilatlarının yaradıcısı da Daşnaksütyun partiyası olub".

**Q.Çaxmaqlı Daşnaksütyunun ermənilərin özünə qarşı da qanlı qətliamlar törətdiyini xatırlatdı:** “Ermənistanın özündə 1991-ci ildən sonra bu partiyanın törətdiyi cinayətlər unudulmayıb. 1999-cu ilin 27 oktyabr parlament basqınını törədən terrorist Nairi Hunanyan bu partiyanın üzvü idi. Birinci Qarabağ müharibəsində minlərlə daşnak - terrorçu Azərbaycan torpaqlarında cinayətlər törədib. İndi bu cinayətlər, maraqlıdır ki, Ermənistanın özündə dilə gətirilir. Ermənistanda bunu siyasi fəaliyyətlə məşğul olan hər kəs bilir. Odur ki, hakimiyyət bu partiyanı gələcək seçkilərdə təhdid ünsürü saydığından ondlan qurtulmaq istəyir. Ermənistanın sülh və sabitlik içərisində yaşaması, qonşularla əlaqələrin olması üçün revanşist və qatı millliyyətçi baxışı olan siyasi təşkilatların fəaliyyətinin qadağan edilməsi məsələsi ortadadır”.

**Q.Çaxmaqlı bütün qeyd olunanlarla yanaşı, bir məqamı da vurğuladı:** “Bu partiyanın ölkədə ciddi dayağı olmasa da, diasporda onu dəstəkləyən kəsim var. Ermənistan hakimiyyəti bundan ehtiyatlanır ki, bu partiyanın üzərinə gedilsə, diasporun dəstəyindən məhrum olar. Bu səbəbdən zənnimcə, partiyanın seçkilərdə iştirakına imkan veriləcək, amma bu siyasi təşkilatın yetərincə elektoratı olmadığından heç bir uğuru olmayacaq və cəmiyyətdən silinib atılması da o zaman başlayacaq. Belə görüşlərə sahib siyasi təşkilatların zərərli ünsürlər olduğu qənaəti bu illərdə artıq formalaşıb. İndi bu partiyanın sülhə mane olan qüvvə imici var. Hakimiyyətin bu cəhət üzərində işləyib, onun sonunu gətirməsi prosesi asan olmayacaq, amma Ermənistan bölgədə sülh və sabitlik kursu seçibsə, ona mane olan belə terrorçu, şovinist və faşist təşkilatlardan xilas olmalıdır”.

❑ **E.PAŞASOY, Musavat.com**



# Bir sayğısız bəyanata qısa cavab

## İranın Bakıya irad üçün mənəvi haqqı yoxdur

**Ölkəmizdəki İran səfirliyi İsrailin XİN başçısının Bakıda səsləndirdiyi açıqlamalarla bağlı bəyanat verərək, Tel-Əvivi Fələstin torpaqlarını işğal etməkdə, xalqa qarşı soyqırıms siyasəti yeritməkdə, dövlət terrorizmində ittiham edib: “Bu qeyri-qanuni və cinayətkar rejimin nümayəndəsinə Bakıda həmin rejimin cinayətlərini ört-basdır etmək, İran İslam Respublikasına qarşı əsassız iddialar və sərsəm fikirlər səsləndirmək üçün şərait yaradılmasına görə təəssüfləndiyimizi bildirməklə... İran və Azərbaycan arasındakı münasibətləri pozmaq, bölgədə gərginlik və qeyri-sabitlik yaratmaq məqsədi güdən sionist rejiminin bu növ fitnə-fəsad və müdaxiləçi hərəkətlərinə qarşı ayıq-sayıq olmağın zəruriliyini xatırladırıq”.**

Bu, nə deməkdir? Bu o deməkdir ki, Tehranın mövqeyinə görə, Azərbaycan İranla münasibətləri pis olan ölkələrlə normal münasibət saxlamamalı, keçirdiyi beynəlxalq tədbirlərə onları dəvət etməməli, dəvət etsə də, çıxış üçün söz verməməli, bir sözlə, İranın dostu ilə dost, düşməni ilə düşmən olmalıdır.

Tərs kimi, bu gen dünyada İranın dostu, müttəfiqi yoxdur. Təklənmiş vəziyyətə düşən, özünü beynəlxalq aləmdən böyük ölçüdə təcrid edən və bu səbəbdən siyasi, iqtisadi girdabda çabalayan bir dövlət kiçik Qafqaz ölkəsini də öz yanında görmək istəyir.

Yada salırıq ki, Azərbaycan ərazisinin 20 faizinin erməni işğalında qaldığı, atəşkəs sazişinin hər gün pozulduğu, təmas xəttində snayper müharibəsi getdiyi illərdə İran dövlətini idarə edənlər şiə-müsəlman xalqına zülm edən Ermənistan hakimiyyətinin rəhbərlərini Tehranda yüksək səviyyədə qarşılayır, başdan oturdur, qarşılıqlı faydalı sazişlər imzalayır, dostluqdan, qardaşlıqdan dəm vururdular. Məsələn, Ermənistan prezidenti Serj Sərkisyan 2009-cu ildə Tehranda belə bir açıqlama vermişdi: “Heç bir halda Qarabağ Azərbaycana verilə bilməz. Azərbaycanın Artsaxa iddialarının heç bir hüquqi, tarixi və ya mənəvi əsası yoxdur. Dağlıq Qarabağ isə Azərbaycanın bir hissəsi ola bilməz: bu məsələdə Azərbaycan çoxdan etibarın bütün hədlərini tükədib”.

Bu necə olurdu ki, Xocalıda 613 qoca, uşaq, qadını bir gecənin içində amansızcasına qətlə yetirən terrorçu rejimin lideri, həmin hərbi cinayətlərə şəxsən rəhbərlik etmiş bir şəxs Tehranda özünü bu qədər ötkəm aparırdı? Çünki ona bu fürsəti İran rəhbərləri vermişdi. Sərkisyan özünü Tehranda onların təbii müttəfiqi kimi aparırdı, bilirdi ki, İrəvanda Azərbaycanı necə sevmirlərsə, Tehrandakı saraylarda da elə sevmirlər.

Ona görə də iranlı diplomatlar dönüb-dolaşıb hər dəfə İsrailə görə rəsmi Bakıya irad bildirmək üçün nə hüquqi, nə siyasi, nə də mənəvi haqq sahibi deyillər...

❑ **“Yenì Müsavat”**

YENİ MÜSAVAT
N 4 (8853) 28 yanvar 2026

**ABŞ-nin vitse-prezidenti Ceyms Di Vensin fevralda Azərbaycana (və Ermənistana) səfəri diqqətləri onun personasına yönəldib. Yada salaq ki, ABŞ Prezidenti Donald Tramp özü "Truth Social" sosial şəbəkəsində bu barədə yazıb. Onun sözlərinə görə, Vensin səfəri sülh prosesini daha da irəli aparmağa, eləcə də "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) adlanan yolun həyata keçirilməsinə yönəlib. "Yeni Müsavat"ın "Persona" rubrikası bu dəfə də diqqəti ölkəmizə səfər edəcək ABŞ-nin vitse-prezidenti üzərində cəmləyib.**



# Ceyms Di Vensin həyat hekayəsi

## Dəniz piyadaçısı, hərbi müxbir, sərt üslublu siyasət adamı...




### Anası narkomaniyaya görə həbsə düşdü, nənə-babası böyütdü

Ceyms Di Vens 2 avqust 1984-cü ildə ABŞ-nin Ohayo ştatının Middltaun şəhərində anadan olub. Valideynləri o, altı yaşında olarkən boşanıblar. Vensin anası tibb bacısı işləyirdi və reseptlə verilən dərmanlara çıxışı var idi. Bu dərmanlardan istifadə nəticəsində onda narkotik asılılıq yaranmışdı. Vens 12 yaşında olarkən anası həbs edildi və o, ana tərəfdən baba və nənəsinin himayəsinə verildi.

Anasının valideynləri Vensin qəyyumluğunu rəsmiləşdirdikdən sonra gələcək siyasətçi onların soyadını götürərək rəsmi şəkildə Ceyms Devid Vens adını aldı.

Çətinliklərə baxmayaraq, Vens anası ilə yaxşı münasibətlərini qoruyub saxlayıb. ABŞ-də vitse-prezidentliyə namizəd kimi ilk çıxışında o, anası ilə fəxr etdiyini bildirib və onun narkotik asılılığından qurtulmasının 10 illiyini Ağ Evdə qeyd etməyi təklif edib.

### Köşə yazarı, bioqrafiya kitabı, katolik...

Vensin atası yeniyetməlik dövründə qısa müddətə oğlu ilə əlaqəni bərpa edib. Vensin sözlərinə görə, atası onun musiqi zövqünü tənqid edib və Black Sabbath, Led Zeppelin və Erik Klepton əvəzinə xristian rokuna qulaq asmağı tövsiyə edib. Daha sonra Vens 2019-cu ildə - 35 yaşında katolik inancını qəbul edib.

Orta məktəbi 2003-cü ildə Middltaun şəhərində bitirdikdən sonra Vens ABŞ Dəniz Piyadaları Korpusunda xidmətə başlayıb. Orduda dörd il xidmət edib, 2005-ci ildə hərbi müxbir kimi İraqa göndərilib. Orada ictimaiyyətlə əlaqələr bölməsində çalışıb. Xidməti başa vurduqdan sonra yaxşı davranışa və Hərbi-Dəniz Qüvvələrində nailiyyətlərə görə medallarla təltif olunub.

Sonradan Ohayo Ştat Universitetinə daxil olub və 2009-cu ildə politologiya və fəlsəfə üzrə bakalavr dərəcəsi alıb. 2013-cü ildə isə Yel Hüquq Məktəbini bitirib.

Hüquq təhsilini başa vurduqdan sonra Vens ABŞ-nin Apelyasiya Məhkəməsinin hakimi Aleks Kozinskinin yanında hüquq katibi kimi çalışıb. Daha sonra nüfuzlu "Sidley Austin LLP" hüquq firmasında vəkil kimi fəaliyyət göstərib.

2015-ci ildə PayPal-ın qurucularından biri olan Piter Tilin həmtəsisçisi olduğu Mithril Capital Management vençur şirkətinə keçib. Til Silikon Vadisində Trampın azsaylı qatı tərəfdarlarından biri idi. Bu şirkətdə Vens qısa müddətdə rəhbər vəzifəyə yüksəlib.

2017-ci ilin əvvəlində Vens AOL-un qurucusu Stiv Keysin yaratdığı "Revolution LLC" vençur şirkətinə tərəfdaş kimi qoşulub. Şirkət Silikon Vadisindən kənarda yerləşən startaplara dəstək verirdi. Elə həmin il Ohayoda narkomaniya, məşğulluq və təhsil problemləri ilə məşğul olan "Our Ohio Reneval" adlı qeyri-kommersiya təşkilatı yaradıb. Təşkilat iki ilə yaxın fəaliyyət göstərdikdən sonra bağlanıb.

2020-ci ildə Vens "The New York Times" üçün köşə yazıları yazıb və televiziya kanallarında siyasi şərhçi kimi çıxış edib.

2016-cı ildə Vens uşaqlıq və yoxsulluq içində böyüməsi haqqında "Hillbilli Elegiyası: böhran şəraitində bir ailənin və mədəniyyətin hekayəsi" adlı xatirə kitabını nəşr etdirib. Kitab ABŞ-də böyük rezonans doğuraraq bestsellerə çevrilib.

2020-ci ildə kitab əsasında Ron Hovardın rejissorluğu ilə eyniadlı film çəkilib. Filmdə Qlen Klouz və Emi Adams baş rolları ifa ediblər.

### Siyasi karyera, senator

Yeldə təhsil alarkən Vens respublikaçı senator Bob Şulerin yanında təcrübə keçib, həmçinin senator Con Korninin hüquq katibi olub. 2016-cı ildə Vens Donald Trampı kəskin tənqid edib, onu açıq şəkildə "axmaq" adlandırıb, şəxsi söhbətlərdə isə Hitlerlə müqayisə edib. Mövqeyinin dəyişməsində 2018-ci ildə Trampın Ali Məhkəməyə namizədi Brett Kavano ətrafında yaranan qalmaqalın rol oynadığı bildirilir. Həmin vaxt Vensin həyat yoldaşı Uşa Çulükuri Kavano ilə çalışırdı.

2022-ci ilin martında Vens senatorluq kampaniyasına qoşulub və Ohayodan senator seçilib. Senatda o, bankçılıq, ticarət və yaşlıların problemləri üzrə komitələrin üzvü olub. 2024-cü ilin avqustuna qədər onun təşəbbüslərindən heç biri qanun statusu almayıb.

### Ukraynaya qarşı mövqe

Vens Ukraynaya yardıma qarşı çıxaraq, Kiyevin ərazi güzəştlərinə getməli olduğunu, Rusiya ilə danışıqların mümkün və zəruri olduğunu bildirib. Ümumilikdə, Vensin Ukraynadakı münaqişə ilə bağlı mövqeyi dəyişməz olaraq qalır: o, Kiyevin müəyyən əraziləri güzəştə getməli olacağına, Moskvanın respublikanın neytrallığına və müstəqilliyinə zəmanət verməli olduğuna və Rusiya Prezidenti Vladimir Putinlə danışıqlar aparmağın mümkün və zəruri olduğuna inanır.

Vens Baydeni HƏMAS-a qarşı müharibədə İsrailə kifayət qədər yardım göstərmədiyinə görə tənqid edərək, onun siyasətinin münaqişəni uzatdığını və Yaxın Şərqdə İrana qarşı "vahid cəbhə"nin yaradılmasına mane olduğunu iddia etdi. O, həmçinin Çinə qarşı kifayət qədər sərt siyasət tərəfdarıdır. Vens abort və eyni cinsli nikahlara, eləcə də yetkinlik yaşına çatmayanlar üçün cinsin dəyişdirilməsi prosedurlarının qadağan edilməsinə qarşı çıxır.

### Vitse-prezidentliyə namizədliyi, hindu mənşəli xanımı

15 iyul 2024-cü ildə Donald Tramp Vensi rəsmi olaraq vitse-prezidentliyə namizəd elan edib. Analitiklər Trampın bu seçimini çaşqınlıqla qarşılayıblar. **Tramp bu seçimi barədə yazıb:** "Çox düşündükdən və təhlil etdikdən sonra, eləcə də bir çox istedadları nəzərə alaraq, qərara gəldim ki, ABŞ-nin vitse-prezidenti olmaq üçün ən uyğun şəxs Ohayo ştatının senatoru Vensdir". **Donald Tramp vitse-prezidentliyə namizədin tərcümeyi-halını qürurla təsvir edib:** "Vens ölkəmizə Dəniz Piyadaları Korpusunda şərəflə xidmət edib, iki ildə Ohayo Dövlət Universitetini və Yel Hüquq Məktəbini əla qiymətlərlə bitirib. Seçki kampaniyası zamanı Vens Trampın oğlunun və İlon Maskın dəstəyini qazanıb. Donald Trampa qarşı sui-qəsd cəhdindən sonra hər iki partiya gərginliyi azaltmağa çalışarkən, Vens X sosial media platformasında Baydeni "Trampı nəyin bahasına olursa-olsun dayandırmaq istəyən avtoritar faşist" adlandırıb.

Vens vitse-prezidentliyə namizədliyi elan edildikdən sonra, onun vaxtilə sosial şəbəkələrdə yazdığı şərhlər yenidən gündəmə gəlib və təkcə Demokratların deyil, həm də partiya yoldaşlarının tənqidlərinə səbəb oldu. Vensin üzərində çəkic və oraq olan qırmızı köynək geyindiyi və "SSRİ" yazısı olduğu köynəkdə şəkli də xeyli suallar doğurmuşdu. 5 noyabr 2024-cü ildə keçirilən prezident seçkisində Donald Tramp qalib gəlib. 20 yanvar 2025-ci ildə Cey Di Vens and içərək ABŞ-nin vitse-prezidenti olub.

Vens evlidir, üç övladı var. Həyat yoldaşı hindu mənşəli amerikalı Uşa Çulükuridir. Onlar 2014-cü ildə Kentukkidə evləniblər.

❑ **"Yeni Müsavat"ın xarici siyasət şöbəsi**

# AŞ PA-dan yeni qərəzli qətnamə

## Qurum Bakıda saxlanılan bütün erməni terrorçuları azad etməyə çağırdı; **partiya sədri:** "Onların qərarlarının Azərbaycana heç bir dəxli yoxdur"

**Avropa Şurası Parlament Assambleyası (AŞ PA) Azərbaycana qarşı qərəzli mövqeyindən heç cür əl çəkmək istəmir. Erməni lobbisinin əlində alətə çevrilən muzdlu AŞ PA deputatları haqsız olaraq ölkəmizi hədəfə alır. Belə ki, AŞ PA Azərbaycanı Bakıda saxlanılan bütün erməniləri azad etməyə çağıran qətnamə qəbul edib.**



Bakı-xeber.com-un yazdığına görə, Ermənistan Milli Assambleyasının vitse-spikeri və AŞ PA-da Ermənistan nümayəndə heyətinin rəhbəri Ruben Rubinyan rəsmi Facebook səhifəsində Strasburqda AŞ PA-nın "Assambleyanın Monitorinq Prosedurunda İrəliləyiş" adlı qətnaməsinin qəbul edildiyini yazıb. "Qətnamənin Ermənistanla bağlı hissəsində, digər məsələlərlə yanaşı, AŞ PA "bir neçə ruhani tərəfindən hakimiyyəti ələ keçirmək planları ilə bağlı məlumatlarla bağlı" dərin narahatlığını bildirir və Azərbaycanla bağlı hissəsində isə orada saxlanılan bütün ermənilərin azad edilməsinə çağırır", - deyə R.Rubinyan bildirib.

Bakıda həbsdə olan ermənilərin ittiham olunduğu konkret maddələr var və onlar Azərbaycan məhkəməsi tərəfindən mühakimə olunur. AŞ PA-nın erməni lobbisinin puluna şirnikib belə qətnamə qəbul etməsi və separatçıları azad etməklə Azərbaycanın qarşısına hansısa tələb qoyması qəbuledilməzdir.

**Azad Vətən Partiyasının sədri Akif Nağı** bildirib ki, AŞ PA Azərbaycana qarşı öz ənənəvi qərəzli mövqeyini nümayiş etdirir. "AŞ PA-nın qərarlarının, çıxardığı qətnamənin Azərbaycana heç bir dəxli yoxdur. Cənab Prezident son çıxışlarından birində də vurğuladı ki, AŞ PA-nın və başqa qurumların qərarlarına biz heç bir əhəmiyyət vermirik, nəzərə almırıq, çünki qərəzlidir. Dəfələrlə AŞ PA-nın diqqətinə çatdırılıb ki, Azərbaycana qarşı qərəzli mövqedən geri çəkilin, amma yenə də qərəzli mövqelərini nümayiş etdirirlər. AŞ PA-da qəbul olunan anti-Azərbaycan qətnaməsi də bu qərəzli mövqenin davamıdır. Deyirlər ki, Bakıda saxlanılan ermənilər azad olunmalıdır. Bu nə deməkdir? Siz etnik mənsubiyyət məsələsini müəyyənləşdirirsiz burada? Əvvəllər "hərbi əsir" deyirdilər, indi də, sadəcə, ermənilər deyirlər. Artıq bütün cizgiləri keçiblər, ədalət prinsipləri yoxdur, açıq-aşkar ermənilərin mövqeyindədirlər. Bir tərəfdən öz qərəzli qətnamələri ilə ermənilərin müdafiə edirlər, onlara öz simpatiyalarını göstərirlər, digər tərəfdən, məqamdan istifadə edib Azərbaycanı nədəsə ittiham etməyə, günahkar tərəf kimi göstərməyə çalışırlar. Məsələnin də mahiyyətinə varmaq istəmirlər ki, bunlar hərbi canilərdir və bu hərbi canilərə qarşı Azərbaycan məhkəmə prosesi qurub, ədalətli proses gedib, faktlar hamısı ortadadır, yüzlərlə şahid dindirilib, şahid ifadələrində onlarla bağlı açıq, təkzibolunmaz faktlar səsləndirilib. Bu məhkəmə prosesində hər şey ortadadır. Müraciət edə bilərlər ki, onlarla bağlı hansısa yumşaldıcı hal nəzərə alınsın. Amma "buraxılsınlar" deyirlər. Bu nə hökmdür? Beynəlxalq hüquq normalarını AŞ PA-nın özü tapdalayır".

**A.Nağı qeyd etdi ki, Azərbaycanla bağlı məsələni Ermənistanla əlaqədar qətnaməyə əlavə etməklə AŞ PA deputatları məsələni tamamilə təhrif edirlər:** "Bu məsələnin Ermənistana nə dəxli var? Proses Azərbaycanda gedən prosesdir. Azərbaycana qarşı hansısa təkliflərini Ermənistanla bağlı qətnamədə verirlər. Bu özü də məntiqsizliyin bir göstəricisidir.

Onsuz da Azərbaycan bu istiqamətdə müəyyən addımlar atır. Qatı cinayətkar başda Vaqif Xaçaturyan başda olmaqla, dörd nəfəri azad edib Ermənistana göndərdi. Onlar Ermənistana gedən kimi Azərbaycana qarşı təbliğat kampaniyası aparmağa başladılar, olmayan ittihamlar səsləndirirlər. Azərbaycanın bu humanist addımına münasibətdə onlar tərəfindən qeyri-adekvat, nankor bir münasibət sərgilənir".

**A.Nağı əlavə etdi ki, Azərbaycan dövləti öz humanistliyini göstərir, amma qarşılığında erməni xislətini görür:** "Ona görə də yaxşı olar ki, AŞ PA Ermənistanda gedən proseslərə, buradan Azərbaycanın azad edib Ermənistana göndərdiyi adamların davranışları, hərəkətləri ilə bağlı münasibət bildirsin, Azərbaycanın onlara humanist davrandığını qeyd etsinlər. Amma bunları görmürük, onlarda obyektivlik hissi yoxdur. Hesab edirəm ki, Azərbaycan bu cür qətnamələrə heç əhəmiyyət verməməli, öz xəttini, mövqeyini davam etdirməlidir".

❑ "Yeni Müsavat"

# "Metsamor" ya partlayacaq, ya söküləcək

## Türkiyədən cəmi 16 kilometr, Azərbaycandan isə 120 kilometr məsafədə yerləşən AES güvənli əldə olmalıdır və Rusiya bu baxımdan etibarlı deyil

**Mütəxəssislərin fikrincə, 1976-cı ildə köhnəlmiş texnologiya əsasında inşa edilən və seysmik zonada yerləşən "Metsamor" Atom Elektrik Stansiyası (AES) ətraf mühit və insan sağlamlığı üçün ciddi risk mənbəyidir. Stansiya Çernobılda istifadə olunan analoji texnologiya ilə tikilib və reaktoru ikinci qoruyucu təhlükəsizlik örtüyü olmadan fəaliyyət göstərir. Bu amil "Metsamor"u regionun ekoloji təhlükəsizliyi baxımından davamlı təhdidə çevirir.**



Mümkün qəza halında fəsadların təkcə Ermənistanla məhdudlaşmayacağı, bütün Cənubi Qafqazı və hətta Yaxın Şərq ölkələrini əhatə edəcəyi proqnozlaşdırılır. Təsadüfi deyil ki, AES Türkiyə sərhədlərindən cəmi 16 kilometr, İran sərhədlərindən 60 kilometr, Azərbaycan və Gürcüstan sərhədlərindən isə 120 kilometr məsafədə yerləşir.

"Metsamor" AES-in birinci və ikinci nüvə reaktorları 1989-cu ildə baş verən Spitak zəlzələsindən sonra dayandırılmışdı. Lakin Ermənistan hökuməti enerji çatışmazlığını əsas gətirərək, beynəlxalq ictimaiyyətin çağırışlarına və kəskin tənqidlərinə baxmayaraq, 1995-ci ildə ikinci reaktorun fəaliyyətini bərpa etdi. Hazırda isə istismar müddəti başa çatan stansiya müvafiq təhlükəsizlik standartlarına tam əməl olunmadan, hətta daha yüksək güclə işlədilir.

Bu kontekstdə diqqətçəkən məqamlardan biri də ABŞ-nin məsələ ilə bağlı mövqeyidir. Belə ki, 2025-ci ilin avqustunda Ağ Evdə ABŞ prezidenti Donald Tramp Ermənistanın baş naziri Nikol Paşinyana təşəkkürünü əks etdirən maraqlı paylaşım etmişdi. Tramp bildirmişdi ki, ABŞ administrasiyası Ermənistan üçün nüvə sahəsində "gözəl bir müqavilə" hazırlayır. Söhbət birbaşa yeni AES tikintisindən deyil, daha çox texniki dəstək, kiçik modul reaktorlar (SMR) və təhlükəsizlik sahəsində əməkdaşlıqdan gedir. Bununla belə, bu açıqlama Vaşinqtonun Ermənistanın nüvə sektoruna artan marağının açıq siqnalı kimi qiymətləndirilir.

Xatırladaq ki, ABŞ ilə Ermənistan arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasında da nüvə enerjisi sahəsində əməkdaşlıq nəzərdə tutulur. Rəsmi açıqlamalara görə, amerikalılar "Metsamor" AES-də elektrik enerjisi istehsalının gələcəkdə kiçik modul reaktorlarla əvəzlənəcəyini vəd ediblər. Ermənistanın Rusiyanın "enerji asılılığından" xilas olmaq üçün "Metsamor"dan ABŞ-nin xeyrinə imtina edə biləcəyi barədə iddialar yeni deyil. Məlumata görə, Vaşinqtonun bu istiqamətdəki marağı təkcə yeni texnologiyaların tətbiqi ilə məhdudlaşmır, həm də regionda geosiyasi məqsədlər daşıyır.

**Hərbi ekspert, ehtiyatda olan polkovnik Rövşən Məhərrəmov "Yeni Müsavat"a açıqlamasında bildirib ki, "Metsamor" AES Rusiyanın nəzarəti altındadır və uzun müddətdir ki, təmir olunmur. Onun sözlərinə görə, Cənubi Qafqaz böyük fəlakətlə üz-üzədir:** "Ermənistanın nə büdcəsi, nə də əlində olan resurslar imkan verir ki, AES-də mütəmadi təmir işləri aparılsın. Oradakı nüvə qalıqları Rusiya ərazisinə aparılıb basdırılır. ABŞ bütün bunları nəzərə alıb, təhlükəsizlik baxımından belə bir açıqlama verdi ki, biz həmin AES-lə bağlı öz təkliflərimizi verə və yardımçı ola bilərik. Güman edirəm ki, "Tramp yolu" layihəsi həllini tapdıqdan sonra ABŞ ilə Ermənistan arasında əməkdaşlıq daha da güclənəcək.

Lakin unutmayaq ki, hazırda Ermənistanda Rusiyanın 102-ci bazası var. Qarabağ klanı Paşinyana müxalif mövqededir. Onlar uzun müddət Rusiyanın adamları kimi hakimiyyətdə olublar. Onlar bəzi məqamlarda bir çox əngəl törədə bilirlər. Paşinyan da baxmayaraq ki, açıq şəkildə qərbyönümlü siyasət yürüdür, hələ də Rusiyadan asılılıq var. Ermənistanın böyük şirkət və müəssisələrini Rusiya uzun müddətli müqavilə ilə alıb. Paşinyan isə bunların qaytarılması istiqamətində müəyyən addımlar atır. İndiki Ermənistan hakimiyyəti dərk edir ki, "Metsamor" AES də Rusiyanın nəzarətindən çıxarıla və təhlükəsiz vəziyyətə gətirilə bilər. Bu məsələdə ABŞ-nin yardımçı olmağına daha çox üstünlük verilir. Hesab edirəm ki, gələcəkdə Ermənistanda hakimiyyətdə hər hansısa bir dəyişiklik olmasa, hissə-hissə bu istiqamətdə addımlar atılacaq. Çünki AES-i Rusiyanın nəzarətində saxlamaq region və bəşəriyyət üçün böyük təhlükədir. Ermənistanın bunu çox gözəl başa düşür. Ona görə də sülh müqaviləsi imzalandıqdan sonra ABŞ ilə Ermənistan arasında ciddi iş birliyi olacaq".

**Ekspert bildirir ki, Nikol Paşinyan Ermənistanda Rusiyanın nəzarətində olan obyekt və müəssisələrin inteqrasiyasını tədricən ABŞ-yə yönəldib:** "AES hazırda tam şəkildə Rusiyanın nəzarəti altındadır. Bu nəzarətin Rusiyadan çıxması bütün regionun xeyrinə olar. Bu AES böyük təhlükədir. Onu vaxtaşırı təmir etməsələr, nəzarətə götürməsələr, ikinci Çernobıl baş verər. "Metsamor" güvənli əldə olmalıdır. Rusiya isə bu baxımdan etibarlı deyil. Bunu Ermənistanda hər kəs başa düşür. ABŞ-nin maliyyə imkanları böyükdür. Güman edirəm ki, bu ölkə Rusiyaya dəymiş ziyanı ödəyib və qoyduğu pulu özünə geri qaytarıb AES-ə nəzarəti götürə bilər. Eyni zamanda Ermənistan tam şəkildə Rusiyadan imtina edə bilər. Hər bir halda bu, Ermənistanın özündən asılıdır. Hazırkı Ermənistan hakimiyyəti o istiqamətdə addımlar atır. Lakin hakimiyyət dəyişikliyi olarsa, ruspərəst qüvvələr vəziyyəti dəyişə və razılaşma pozula bilər".

❑ Şahanə RƏHİMLİ,
Musavat.com

YENİ MÜSAVAT
N 4 (8853) 28 yanvar 2026

# Dünyanın danışdığı şəhər: Bakıdan 3038 km. uzaqdakı Əbu-Dabi...

## Xurma yarpaqlarından tikilmiş kiçik kənd indi qlobal siyasətin mərkəzinə çevrilib

**Ötən həftə dünya miqyasında ən diqqətçəkən hadisə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtı Əbu-Dabidə keçirilən ABŞ-Rusiya-Ukrayna üçtərəfli danışıqları oldu. "Reuters" agentliyinin məlumatına görə, ABŞ, Rusiya və Ukrayna nümayəndələrinin iştirakı ilə növbəti danışıqlar raundu fevralın 1-də yenə Əbu-Dabidə olacaq. Bu səbəbdən bu paytaxt şəhəri haqda bəzi bilgilər, zənnimizcə, oxucular üçün maraqlı olar. Kim bilir, bəlkə elə çoxdan gözlənilən sülh Abu-Dabidə imzalandı...**

**Əfsanədən gerçəkliyə: Əbu-Dabinin yaranması**

Əbu-Dabinin tarixi təxminən 1761-ci ildən başlayır. Rəvayətə görə, Bəni Yas qəbiləsindən olan ovçular bir ceyranın ardınca gedərkən adada şirin su mənbəyi aşkar ediblər. Bu kəşf səhralıq şəraitində həyati əhəmiyyət daşıyırdı və yeni yaşayış məntəqəsinin əsasını qoydu. Məhz buna görə ərazi "Əbu-Dabi" - "ceyranın atası" adlandırıldı. Şəhər Fars körfəzinin cənub-şərq hissəsində, materikdən dörddə bir kilometr aralıda yerləşən bir adada yerləşir. Ada materiklə üç avtomobil körpüsü ilə birləşir.

İlk dövrlərdə bu, xurma yarpaqlarından tikilmiş balıqçı daxmalarından ibarət kiçik kənd idi. Əhalinin əsas dolanışıq mənbəyi balıqçılıq və dənizlə bağlı fəaliyyətlər idi.

XVIII əsrin sonlarında Əl-Nəhyən nəslindən olan hakim öz iqamətgahını Əbu-Dabiyə köçürdü. Bu addım şəhərin siyasi statusunu möhkəmləndirdi və onu qəbilə ittifaqının mərkəzinə çevirdi. Su mənbəyini qorumaq üçün Qasr əl-Hosn qalası inşa edildi ki, bu gün də Əbu-Dabinin ən qədim memarlıq abidələrindən biridir. XIX və XX əsrin əvvəllərində şəhərin iqtisadiyyatı mirvari ovuna əsaslanırdı. Əbu-Dabi regionun əsas mirvari mərkəzlərindən biri kimi tacirləri cəlb edir, beynəlxalq ticarət əlaqələri qururdu. Bu dövr neft erası başlamazdan əvvəlki son ənənəvi mərhələ idi.

**Neftin kəşfi və sürətli modernləşmə**

1958-ci ildə Umm-Şayf dəniz yatağında neftin kəşfi Əbu-Dabinin taleyini kökündən dəyişdi. 1962-ci ildə ilk neft ixracı həyata keçirildi və bu, iqtisadi yüksəlişin başlanğıcı oldu. 1966-cı ildə hakimiyyətə gələn Şeyx Zayed bu gəlirləri sürətli modernləşməyə yönəltdi.

1971-ci ildə BƏƏ-nin yaradılması ilə Əbu-Dabi federasiyanın siyasi mərkəzinə çevrildi, 1996-cı ildə isə rəsmi olaraq daimi paytaxt statusu aldı. Bu dövrdən etibarən şəhər regionun əsas qərarvermə mərkəzlərindən biri oldu.



**Səhradan qlobal mədəni və texnoloji mərkəzə**

Cəmi yarım əsr ərzində Əbu-Dabi heyrətamiz bir transformasiya yaşayıb. Bir vaxtlar bədəvilərin xurma yarpaqlarından tikilmiş daxmalarda yaşadığı, dəvələrlə hərəkət etdiyi səhralıq ərazi bu gün yüksək texnologiyalı infrastrukturu, müasir memarlığı və yüksək rifah səviyyəsi ilə seçilən qlobal şəhərə çevrilib. Bu sıçrayışın əsas səbəbi, şübhəsiz ki, neft ehtiyatlarının kəşfi oldu. Lakin Əbu-Dabinin uğuru təkcə təbii sərvətlərin mövcudluğu ilə deyil, onlardan strateji və uzaqgörən şəkildə istifadə olunması ilə izah edilir.

Bu baxımdan Birləşmiş Ərəb Əmirlikləri, xüsusən də Əbu-Dabi, Fars körfəzinin digər neft ölkələrindən fərqlənir. Neft gəlirləri yalnız istehlaka deyil, uzunmüddətli inkişaf modelinin qurulmasına yönəldildi. Nəticədə Əmirliklər Avropa turistləri və qlobal investorlar üçün ən cəlbedici məkanlardan birinə çevrildi.

**Şeyx Zayed amili: dövlət quruculuğunun təməli**

Müasir Əbu-Dabinin formalaşmasında həlledici rol ölkənin banisi və ilk prezidenti Şeyx Zayed ibn Sultan Əl Nəhyana məxsusdur. Onun adı paytaxtın simvoluna çevrilib: şəhərin əsas dini abidəsi - Şeyx Zayed Məscidi - onun şərəfinə adlandırılıb, portretləri isə ictimai məkanlarda geniş yayılıb. Bu, sadəcə, formal hörmət deyil, konkret siyasi nəticələrə əsaslanan "millətin atası" anlayışının təzahürüdür.

Şeyx Zayed neftdən əldə olunan gəlirləri yolların, xəstəxanaların, məktəblərin tikintisinə, su və enerji təminatının yaradılmasına yönəldərək dövlətin sosial əsaslarını formalaşdırdı. Onun siyasəti Əbu-Dabini təkcə zəngin deyil, eyni zamanda yaşamaq üçün komfortlu şəhərə çevirdi.

**Mədəniyyətə yönəlmiş inkişaf modeli**

Mövcud stereotiplərin əksinə olaraq, Əbu-Dabi yalnız lüks hotellər və çimərliklər şəhəri deyil. Dubaydan fərqli olaraq, paytaxt mədəniyyətə strateji sərmayə yatırdı. Şəhərdə Luvr Əbu-Dabi muzeyi inşa edildi, dünya muzeylərindən klassik incəsənət əsərləri alındı, müasir incəsənət sərgi-yarmarkaları təşkil olundu.

**Memarlıq və şəhərsalma: kimlik axtarışından futurizmə**

Əbu-Dabinin memarlıq siması onun inkişaf mərhələlərini açıq şəkildə əks etdirir. 1960-1980-ci illərdə şəhər funksional modernizm üslubunda, sürətlə və planlı şəkildə inşa olunurdu. 1990-cı illərdən etibarən milli kimlik axtarışı başlayaraq neoislam və postmodern elementlər memarlığa daxil edildi.

2000-ci illərdən sonra isə Əbu-Dabi "starxitektura" mərhələsinə qədəm qoydu. Jan Nuvellin layihələndirdiyi Luvr Əbu-Dabi, Capital Gate-in 18 dərəcəlik maili qülləsi, Aldar-ın dairəvi göydələni və Al Bahar Towers-in hərəkətli fasadları şəhərin futuristik siluetini formalaşdırdı.

**Neftdən sonrakı dövrə hazırlıq**

Bu gün Əbu-Dabi yalnız neft gəlirlərinə arxalanmır. Masdar Siti kimi layihələr vasitəsilə bərpa olunan enerji, yüksək texnologiyalar və innovasiya sahələrinə sərmayələr yatırılır. Məqsəd neftdən sonrakı dövrdə də iqtisadi və siyasi çəkisini qoruyub saxlamaqdır.

Nəticə etibarilə, Əbu-Dabi nümunəsi göstərir ki, təbii sərvətlər uğurun yalnız başlanğıcıdır. Əsas məsələ onları strateji düşüncə, mədəni vizyon və institusional quruculuqla birləşdirə bilməkdir.

**Dünyanın ən isti şəhərlərindən biri**

Əbu-Dabi dünyanın ən isti şəhərlərindən biridir. Yağıntı miqdarı çox azdır (ildə təxminən 50 mm) və yayda temperaturu 50°C-yə çata bilər. Şəhərdə Ali Texnologiya Kolleci və Şeyx Zayed Universiteti də daxil olmaqla bir neçə böyük təhsil müəssisəsi yerləşir. BƏƏ İctimai Kitabxanası da Əbu-Dabidə yerləşir.

**Bakıdan iki dəfə kiçik**

Bakı Əbu-Dabidən təxminən iki dəfə böyükdür. İki şəhər arasında heç bir zaman fərqi yoxdur, çünki onlar eyni saat qurşağında yerləşir. Bakıdan Əbu-Dabiyə qədər olan avtomobil yolu 3038 km-dir. Təyyarə ilə isə məsafə 1824 km-dir.

❑ "Yeni Müsavat"



## Görüş yerini dəyişmək olmaz

**Rusiya, Ukrayna və ABŞ nümayəndələri arasında üçtərəfli danışıqların üçüncü mərhələsi gələn həftənin sonunda, fevralın 1-də yenə də Əbu-Dabidə keçiriləcək. Mətbuat iki günlük görüşlərin konkret təfərrüatlarını hələ də açıqlamayıb.**

"Axios" nəşrinin mənbələrinə görə, üç nümayəndə heyəti hətta nahar etmək üçün birlikdə oturublar. "Hamı demək olar ki, dost kimi görünürdü. Ümidimiz var idi", - deyə ABŞ rəsmilərindən biri bildirib. Onun sözlərinə görə, danışıqlar zamanı "hər şey müzakirə olunub və müzakirələrdən heç kim çəkinməyib".

Ukrayna rəsmilərindən biri danışıqlarda "yaxşı irəliləyiş" əldə edildiyini bildirib. Lakin o əlavə edib ki, prezident Putinin həqiqətən də "danışıq aparanlara razılaşma əldə etmək səlahiyyəti verib-verməyəcəyini" qiymətləndirmək üçün hələ tezdir. "Politico" yazır: "Bu danışıqlar əsasən gərginliyin azaldılması ilə bağlı olub. Əsas məsə isə "müharibədən sonrakı istənilən ssenaridə" Ukrayna üçün Qərbin təhlükəsizlik zəmanətləri olub.

Avropa müttəfiqləri arasındakı razılaşma atəşkəsi izləmək üçün Ukraynada "kiçik bir qoşun iştirakını" tələb edir. Lakin Kiyev xüsusilə Amerika zəmanətlərini istəyir, ABŞ isə öz qoşunlarının mövcudluğuna qarşıdır.

YENİ MÜSAVAT
N 4 (8853) 28 yanvar 2026

**Son illərdə Azərbaycanda ali təhsil sistemində müşahidə olunan əsas tendensiyalardan biri abituriyentlərin böyük əksəriyyətinin öz bölgələrindən kənarda, xüsusilə Bakı şəhərində yerləşən ali təhsil müəssisələrini seçməsidir. Statistik göstəricilər və qəbul prosesindəki real mənzərə onu deməyə əsas verir ki, regionlarda yaşayan minlərlə gənc universitet seçimi zamanı ilk növbədə paytaxtdakı ali məktəblərə üstünlük verir. Bu seçim bəzən təhsilin keyfiyyəti ilə əsaslandırılsa da, əslində səbəblər daha çoxşaxəli və dərin sosial-psixoloji amillərlə bağlıdır.**




# Tələbə olmaq istəyənlər niyə Bakını seçir - səbəblər

## Ekspert: "Onlar düşünürlər ki, paytaxtda yerləşən ali məktəblərdə təhsil almaq gələcəkdə daha geniş imkanlar deməkdir"

Əslində isə regionlarda da kifayət qədər ali təhsil müəssisəsi fəaliyyət göstərir. Bəs onda niyə rayonda yaşayan gənc Bakıya üz tutur? Tələbə olmaq istəyənlər niyə Bakını seçir və bu meylin arxasında hansı əsas səbəblər dayanır?

Mütəxəssislərin fikrincə, səbəblərdən biri təhsilin keyfiyyəti və akademik mühitdir. Belə ki, Bakıda yerləşən ali təhsil müəssisələrinin əksəriyyəti ölkənin aparıcı universitetləri hesab olunur. Bakı Dövlət Universiteti, ADA Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti kimi ali məktəblər həm akademik heyəti, həm də tədris proqramları baxımından daha geniş imkanlara malikdir. Paytaxt universitetlərində daha çox tanınmış professor-müəllim heyəti fəaliyyət göstərir, beynəlxalq proqramlar və mübadilə imkanları genişdir, elmi-tədqiqat fəaliyyəti və akademik mühit daha aktivdir.

Bu amillər abituriyentlərdə "yaxşı təhsil yalnız Bakıda mümkündür" kimi bir stereotip formalaşdırıb. Region universitetləri isə çox zaman bu baxımdan kölgədə qalır və gənclər arasında yetərincə cazibədar görünmür.

Mövzu ilə bağlı **təhsil mütəxəssisi Elçin Əfəndi** "Yeni Müsavat"a danışıb. Mütəxəssis qeyd edib ki, bu məsələdə, vətəndaşların öz seçimlərini etmək hüququ var. Harada təhsil almaq istəmələri hər bir vətəndaşın fundamental hüququdur və bu seçimə hörmətlə yanaşılmalıdır: "Lakin burada müəyyən məqamlar var ki, həmin məqamlar ictimai müzakirə və hətta ictimai qınaq predmetinə çevrilə bilər. Məsələn, vətəndaş öz yaşadığı əraziyə uyğun dövlət universitetinə qəbul oluna biləcəyi halda, israrla Bakıya gələrək hansısa özəl universitetdə təhsil almaq istəyirsə, bu, artıq birmənalı qarşılanmayan və anlaşılması çətin olan bir qərar kimi qiymətləndirilə bilər.

Əgər bu seçimin səbəbi sosial mühitin genişliyi, daha yaxşı şəxsi inkişaf imkanları, özünü reallaşdırmaq və fərdi potensialını üzə çıxarmaq kimi arqumentlərlə izah olunursa, bu halda həmin şəxslərin mövqeyinə müəyyən qədər hörmətlə yanaşmaq mümkündür. Lakin yaxınlıqda yerləşən dövlət universitetini kənara qoyaraq, sırf Bakıda oxumaq naminə özəl universiteti seçmək məsələyə düzgün yanaşma hesab edilə bilməz".

**Elçin Əfəndi onu da qeyd edib ki, daha perspektivli və prestijli hesab olunan universitetlərin demək olar ki, hamısı Bakıda yerləşir ki, bu da tələbələri özünə cəlb edir:** "Ümumilikdə Bakıda yerləşən ali təhsil müəssisələrinə nəzər saldıqda görürük ki, onların böyük əksəriyyəti dövlət universitetləridir. Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti kimi ali məktəblər məhz paytaxtda fəaliyyət göstərir. Özəl universitetlərə gəldikdə isə Xəzər Universiteti, Bakı Ali Neft Məktəbi, ADA Universiteti kimi nüfuzlu ali təhsil ocaqları da yenə paytaxtda cəmləşib.

Göründüyü kimi, daha perspektivli və prestijli hesab olunan universitetlərin demək olar ki, hamısı Bakıda yerləşir. Digər ali təhsil müəssisələri ilə müqayisədə vətəndaşlarımız məhz bu universitetlərdə təhsil almağa üstünlük verirlər. Nəticə etibarilə həmin universitetlər paytaxtda yerləşdiyi üçün tələbələrin Bakıda təhsil almağa maraq göstərmələri tamamilə anlaşılandır. Onlar düşünürlər ki, paytaxtda yerləşən ali məktəblərdə təhsil almaq universitetin reytinqinin daha yüksək olması, diplomun isə gələcəkdə daha geniş imkanlar açması deməkdir".

**Mütəxəssis digər səbəblərdən də danışıb:** "İkinci əsas səbəb isə tələbələrin sosial baxımdan inkişaf etmək istəkləri ilə bağlıdır. Onlar yalnız diplom almağı deyil, eyni zamanda əmək fəaliyyətinə başlamağı, karyera qurmağı, peşəkar əlaqələr formalaşdırmağı düşünürlər. Bakı bu baxımdan daha geniş imkanlar təqdim edir.

Üçüncü tərəfdən isə gənclər belə hesab edirlər ki, paytaxtda təhsil almaq və orada qalmaq, nəticə etibarilə paytaxt sakini olmaq onlara əlavə üstünlüklər qazandıra bilər. Necə ki, biz faktiki olaraq Bakıda yaşayan şəxslərin Azərbaycanın hüdudlarından kənara çıxaraq Gürcüstanda, Türkiyədə, Avropa ölkələrində, ABŞ-də, Yaponiya və Sinqapur kimi inkişaf etmiş dövlətlərdə təhsil aldıqlarını görürük. Bu zaman sual yarana bilər: Bakıda universitetlər olduğu halda onlar niyə xaricə üz tuturlar?

Göründüyü kimi, insan təbiəti etibarilə daim dəyişiklik axtarır, bir məkandan digərinə köçməyi, yeni mühitlərdə özünü sınamağı sevir. Bu nöqteyi-nəzərdən yanaşdıqda, həmin insanların seçimlərinə müəyyən qədər anlayışla və hörmətlə yanaşmaq lazımdır. Eyni zamanda "niyə Bakıya gəlib təhsil alırlar?" sualını vermək də əslində doğru yanaşma deyil və məsələyə yanlış prizma ilə baxmaq deməkdir".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# İşsizlik adlı "canavar"...

## 50 minə yaxın universitet məzunu iş tapa bilməyib, cəmi 582 nəfər dövlət qulluğunda və ya özəl sektorda nisbətən yüksək maaşlı iş sahibi olub



**Azərbaycanda işsizliyin statistikası rəsmi rəqəmlərdən daha aydın görünür. Real durum isə müsbət mənada xeyli fərqlidir. Belə ki, ölkədə təxminən 5.3 milyon nəfər əməkqabiliyyətli əhali var, (ümumi ölkə vətəndaşlarının təqribən 50 faizini təşkil edir) amma rəsmi əmək müqaviləsi ilə işləyənlərin sayı 1.782 min nəfərdir. Bu işçilərin 865,7 min nəfəri dövlət sektorunda, 916,7 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Bu barədə Pressklub.az saytı yazır.**

Bildirilir ki, müstəqil ekspertlərin hesablamalarına görə, Azərbaycanda təqribən 1 milyon nəfər insan xidməti müqavilə ilə çalışır, sahibkarlıq fəaliyyəti ilə məşğuldur və s. Bu rəqəmləri ümumi əməkqabiliyyətli vətəndaşların sayından (5.3 milyon) çıxdıqda təqribən 2.9 milyon nəfərin nə ilə məşğul olduğu haqda konkret məlumat yoxdur. Hökumət aqrar sektorda çalışanları - pay torpaq sahiblərini də qeyri-məşğul hesab etmir. Beləliklə, arzulanan rəsmi işsizlik rəqəmi - 5.2 faiz alınır. 2025-ci ilin avqust ayına olan rəsmi rəqəmlərə görə, Azərbaycanda 281 min nəfərdən artıq vətəndaş rəsmən işsizdir.

Dövlət Statistika Komitəsinin məlumatına istinadən edən sayta görə, 2025-ci ilin doqquz ayı ərzində ölkə üzrə 91 718 iş yeri açılıb. Amma rəsmi statistika başqa bir rəqəm də verir: həmin dövr ərzində ölkədə 88,8 min iş yeri bağlanıb. Yəni iş yerlərinin sayı təqribən 3 min artıb. Amma rəsmi statistika bağlanan iş yerlərinin hansı sahələri əhatə etdiyi, hansı səbəblərdən qapandığı haqda detallı məlumat açıqlamır. Qeyri-rəsmi statistikaya görə, bağlanan iş yerlərinin bir çoxu bir neçə il əvvəl yaradılan, özünü doğrultmuş bizneslərdi. Bağlanma səbəbləri müxtəlif ola bilər, lakin başlıca səbəblər sırasında dövlət qurumlarının, hüquq-mühafizə orqanlarının intensiv müdaxilələri, ölkədə alıcılıq qabiliyyətinin azalması, vergi, cərimə və rüsumların artırılması var. Ölkə mediasında, sosial şəbəkələrdə bu haqda çoxsaylı şikayətlər yer alır.

Yeni iş yerləri isə daha çox Dövlət Vergi Xidmətində qeydiyyata alınan VÖEN-lər və əmək müqavilələridir. Burada real iş yerlərinin sayını müəyyənləşdirmək mümkün deyil, çünki yeni iş yeri kimi qeydə alınanların bir çoxu "ağartma" əməliyyatının məhsuludur. Yəni iş yeri uzun illər faktiki mövcud olub, amma vergi müfəttişlərinin səyi nəticəsində aşkara çıxarılıb, işverən cərimələnib və əmək müqaviləsi qeydə alınıb. Qeyd edək ki, son bir ildə vergi əməkdaşları rayonlarda fermerlərə qarşı çoxsaylı reydlər keçirib. İşçiləri müqaviləsiz mövsümü işlərə cəlb edən sahibkarlara ağır cərimə sanksiyaları tətbiq edilib. Bu rəqəmlər 4-200 min manat arasında dəyişir.

İş yerləri ilə bağlı məlumat qıtlığını Dövlət Məşğulluq Agentliyinin açıqladığı hesabat qismən doldura bilir. Agentliyin məlumatına görə, 2018-2023-cü illərdə Azərbaycanda ali təhsil müəssisələrini bitirənlərin ümumi sayı 120 min 776 nəfər olub. Məzunların 58,6%-i, yəni 70 min 769 nəfəri işlə təmin edilib, qalan hissə isə əmək bazarında yer tapa bilməyib. Məzunların 41 min 69 nəfər, yəni işləyənlərin 58%-i 400 manatdan aşağı maaş alıb. Aylıq əmək haqqı 1551 manatdan yuxarı olan məzunların sayı cəmi 582 nəfərdir.

Bu statistikadan belə çıxır ki, qeyd olunan beşillikdə 50 minə yaxın universitet məzunu ümumiyyətlə özünə iş tapa bilməyib. Yarıdan çoxu isə ixtisasına baxmayaraq, minimum əməkhaqqına razı olub. 121 minə yaxın məzundan cəmi 582 nəfəri dövlət qulluğunda və ya özəl sektorda nisbətən yüksək maaşlı iş sahibi olub. Məşğulluq Agentliyinin hesabatında diqqətçəkən məqamlardan biri universitet məzunlarının harada iş tapmalarıdır. Qurum ilk onluğu açıqlayıb:

Bu siyahıya 1 203 nəfərlə "Araz Supermarket" MMC başçılıq edir. Onu "Kapital Bank" ASC (994 nəfər), Bakı Şəhəri Təhsil İdarəsi (858 nəfər) və "Dost İş Mərkəzi" MMC (708 nəfər) izləyir. İlk onluqda həmçinin "ABC-Telecom" MMC ("Kontakt Home") - 557 nəfər, "Unibank KB" ASC - 516 nəfər, "McDonald's" ASC - 503 nəfər, "OBA Market" MMC - 496 nəfər, "ANC Group" MMC ("Rahat market") - 492 nəfər və "Azərbaycan Supermarket" MMC ("Bravo market") - 487 nəfər yer alıb.

Göründüyü kimi, yeni iş yerləri daha çox xidmət, ticarət və bank-maliyyə sektorunda yaradılıb. Belə çıxır ki, Azərbaycanda son 10 ildə büdcədən ən böyük vəsaitlərin ayrıldığı (ildə 6-7 milyard manat) tikinti sektorunda yaradılan iş yerlərinin sayı birinci onluğa düşmür.

Bir məqamı da qeyd edək ki, 2026-cı il yanvarın 1-dən etibarən özəl sektorda çalışanlar 3 faiz gəlir vergisi ödəyəcəklər. Bu rəqəm gələn il 7 faiz olacaq, sonrakı illərdə daha da artırılması nəzərdə tutulur. Müstəqil ekspertlər hesab edirlər ki, hökumətin güzəştləri ləğv etməsi özəl sektoru daha çətin vəziyyətə sala bilər. Belə ki, vergi yükünün artması əmək müqavilələrinin ləğv olunmasına, ikili mühasibatın yenidən vüsət almasına gətirib çıxarır. Birinci rübün nəticələrində özəl sektorda məşğulluğun, yeni iş yerlərinin azalması mütləq görünəcək.

❑ **"Yeni Müsavat"**

# Bankların yeni "faiz əməliyyatı" - nəyə hazırlıq?

## Ekspert: "Banklarda kredit faizlərinin yüksək olmasının əsas səbəbkarı Mərkəzi Bank deyil"

**Banklarda kredit faizlərinin azalacağını gözləyərkən, əksinə, artım müşahidə olunur. Xezerxeber.az xəbər verir ki, ötən il 11-17 faizlə kredit təklif edən banklarda indi faiz dərəcəsi meyarlardan asılı olaraq 18 faizdən başlayaraq təklif edilir.**




Kredit faizlərində müşahidə olunan artım səbəb Mərkəzi Bankın apardığı sərt pul siyasəti ilə əlaqələndirilir. Belə ki, banklar əhalidən pul cəlb etmək üçün əmanət faizlərini qaldırır. Bu da bank üçün pulun maya dəyərinin artması deməkdir. Bank isə baha aldığı vəsaiti daha baha satdığından kredit faizləri artır.

İqtisadçı təhlilçilərə görə, Mərkəzi Bank hələ də inflyasiya risklərini tam keçmiş hesab etmədiyi üçün faizləri aşağı salmağa tələsmir. Belə olan halda isə faizlərin enməsi gözlənilən deyil. Bu isə bankların "qaş düzəltdiyi yerdə gözü çıxarmaq" əməliyyatına daha çox oxşayır.

Dünyanın bir çox inkişaf etmiş ölkələrində bank kreditləri daha aşağı faizlə verilir. Məsələn, İsveçrədə kreditlər orta hesabla təxminən 2.8% səviyyəsindədir və bu göstərici bir çox inkişaf etmiş ölkələrdə də oxşardır. ABŞ-də kommersiya banklarının əsas kredit faizi adətən təxminən 3.6% səviyyəsindədir. Norveç və Polşada kredit faizləri də təxminən 4%-5% civarındadır. Cənubi Koreyada bu faiz təxminən 2.5% səviyyəsində qalır. Meksikada banklar kreditləri təxminən 7%-7.1%-lə verir. İtaliya və Fransada istehlak kreditləri 3%-4%, biznes kreditləri isə 2%-5% aralığında olur.

OECD ölkələri üzrə orta kredit faizi isə təxminən 9% civarındadır, lakin ölkələr arasında kəskin fərqlər var. Məsələn, Kolumbiyada kredit faizləri təxminən 21%-ə qədər yüksək ola bilər, amma İsveçrə və bəzi Avropa ölkələrində faizlər 3-4% civarındadır.

Mütəxəssislər bu fərqi bir çox amillərlə əsaslandırır. Qeyd edilir ki, mərkəzi bankların pul siyasəti və bank faizləri, inflyasiya səviyyəsi, banklararası rəqabət, kredit riskləri, maliyyə sisteminin inkişaf səviyyəsi və əməliyyat xərcləri kredit faizlərinin formalaşmasına təsir edir.

Azərbaycanda isə kredit faizləri dünya üzrə orta səviyyədən yüksəkdir, inkişaf etmiş ölkələrdə bu faizlər adətən 3-7% arasında olur, bəzi hallarda isə daha da aşağıdır, halbuki Azərbaycanda kreditlər üçün faiz dərəcəsi çox vaxt 10%-20% aralığında qalır.

**İqtisadçı Eldəniz Əmirov mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb:** "Heç də banklar pul cəlb etmək üçün əmanət faizlərini qaldırmır. Həm Mərkəzi Bankın statistikasında artıq uzun müddətdir ki, ümumi əmanət portfelində orta faiz dərəcəsi 8 faizdir. Mərkəzi Bankın statistik bazasında kredit 8.2 faiz əmanətlərin faizidir, 14.2 faiz isə kredit faizidir. Ümumilikdə əmanətlərin gəlirliliyi baxımından sahibkarlıq subyektlərinin banklara yerləşdirdiyi vəsaitlərlə vətəndaşların depozitləri arasında müəyyən fərqlər mövcuddur. Sahibkarların qəbul edilən vəsaitləri ilə əhalinin əmanətləri müqayisə edildikdə, vətəndaşlardan cəlb olunan depozitlərin faizi bir qədər çoxdur. Əmanət faizlərinə gəldikdə isə qısamüddətli - xüsusilə altı aylıq depozitlər üzrə faizlər daha yüksəkdir. Uzunmüddətli əmanətlərdə faiz dərəcələri adətən altı aylıq depozitlərlə müqayisədə daha aşağıdır.

Eyni zamanda əhaliyə verilən kreditlər üzrə faiz dərəcələri davamlı olaraq artır. Bu artımı yalnız Mərkəzi Bankın sərt monetar siyasəti ilə izah etmək düzgün olmaz. Burada əsas səbəblərdən biri bankların riskləri daha yüksək qiymətləndirməsidir. Kredit faizlərinin formalaşmasında bir neçə amil rol oynayır və onların sırasında əsas yer risk faktoruna məxsusdur.

Kreditin geri ödənilməməsi riski nə qədər yüksəkdirsə, faiz dərəcəsi də bir o qədər artır. Bu risk kredit götürənin geri ödəmə qabiliyyətindən, ölkədəki ümumi iqtisadi vəziyyətdən, bazar konyunkturasından və digər iqtisadi amillərdən asılı ola bilər. Məsələyə bu kontekstdə yanaşdıqda tam əminliklə demək olar ki, bu gün banklarda kredit faizlərinin yüksək olmasının əsas səbəbkarı Mərkəzi Bank deyil".

**Beynəlxalq idarəetmə sistemləri üzrə mütəxəssis Asif İbrahimov qeyd edir ki, banklar kredit verərkən əsas diqqəti müştərinin ödəmə qabiliyyətinə və risk səviyyəsinə yönəldir:** "Ödəmə qabiliyyəti əsasən rəsmi gəlirlər əsasında hesablanır. Lakin bir çox hallarda vətəndaşın real qazancı olsa da, bunu rəsmi sənədlərlə sübut edə bilmir. Son dövrlərdə bu istiqamətdə müəyyən yumşalmalar edilib. Hətta ötən il qanunvericiliyə edilən dəyişikliklərə əsasən, müştərinin fəaliyyəti sosial şəbəkələr üzərindən də qiymətləndirilə bilər. Yəni şəxs rəsmi gəlir göstərməsə belə, hansısa layihənin icraçısı və ya rəhbəri olması nəzərə alınır".

Asif İbrahimovun fikrincə, kredit faizlərinin formalaşmasında inflyasiya və risk amilləri xüsusi rol oynayır. Mövcud və proqnozlaşdırılan inflyasiya səviyyəsi, eləcə də borcalanın ödəmə riski bankların faiz qərarlarına birbaşa təsir göstərir. Risk nə qədər yüksəkdirsə, bank da özünü sığortalamaq üçün faiz dərəcəsini artırır.

Ekspert əlavə edib ki, yüksək faizlərin əsas səbəblərindən biri də Azərbaycan Mərkəzi Bankının banklara təqdim etdiyi maliyyə resurslarının baha olmasıdır. Uçot dərəcələrinin yüksək səviyyədə qalması kredit faizlərinə birbaşa təsir edir. Avropa ölkələrində uçot dərəcələri aşağı olduğu üçün kreditlər də adətən 2-3 faiz civarında təklif olunur. Azərbaycanda isə bu göstərici əksər hallarda 13-15 faiz arasında dəyişir.

Onun sözlərinə görə, bankların kredit üçün istifadə etdiyi vəsaitlərin əsas hissəsi əmanətçilərdən cəlb edilir. Əgər bank əmanətlərə 10-12 faiz ödəyirsə, kreditləri daha aşağı faizlə verməsi real deyil. Bank həm əmanətçilər qarşısında öhdəliyini yerinə yetirməli, həm əməliyyat xərclərini qarşılamalı, həm də maliyyə dayanıqlığını qorumaq üçün mənfəət əldə etməlidir. Bu amillər kredit faizlərinin yüksək qalmasına səbəb olur.

Ekspert hesab edir ki, düzgün mexanizmlər qurularsa, kredit faizlərini mərhələli şəkildə azaltmaq mümkündür. Bu isə iqtisadi aktivliyin artmasına, sahibkarların və vətəndaşların maliyyə yükünün azalmasına müsbət təsir göstərə bilər.

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Elektron siqaret qadağası təsdiqləndi



**Elektron siqaretlərin və onların komponentlərinin idxalı, ixracı, istehsalı, saxlanılması, topdan və pərakəndə satışı, istifadəsini qadağan edən qanun təsdiqlənib. Bununla bağlı Prezident İlham Əliyev "Tütün və tütün məmulatı haqqında" Qanuna dəyişikliyi təsdiqləyib.**

Sənəddə qeyd edilib ki, nikotin tərkibli elektron siqaretlər tütün məmulatı anlayışına daxil edilir.

Belə ki, elektron siqaret qida məhsulları, tütün məhsulları, dərman vasitələri və tibbi cihazlar istisna olmaqla, nikotin tərkibli və ya nikotin tərkibi olmayan buxarın tənəffüs yolu ilə insan orqanizminə daxil olması üçün nəzərdə tutulmuş və müştük və ya digər komponentləri, o cümlədən kartrici və flakonu olan və ya olmayan cihaz vasitəsilə istifadə etmək üçün nəzərdə tutulmuş məhsuldur. Elektron siqaretlərin flakonundan bir və ya bir neçə dəfə istifadə edilə bilər və ya onlar birdəfəlik kartriclərlə təkrar doldurula bilər.

Qanunda qeyd edilib ki, qızdırılan tütün məmulatı isə elektron siqaret hesab edilməyəcək.

Vurğulanıb ki, qızdırılan tütün məmulatı tütündən (tütün qarışığından) və onun istehsalında istifadə edilən qeyri-tütün komponentlərindən ibarət, alışdırılmadan və tütün tüstüsü əmələ gəlmədən qızdırılma prosesində yaranan nikotin tərkibli aerozolun tənəffüs yolu ilə insan orqanizminə daxil olması üçün nəzərdə tutulmuş məmulatdır.

Bildirilib ki, anlayışların dəqiqləşdirilməsi və yeni anlayışların müəyyən olunması tütün məmulatlarının, o cümlədən qızdırılan tütün məmulatının, habelə elektron siqaretin hüquq tətbiqetmədə daha dəqiq təsnifləşdirilməsinə və diferensasiyasına imkan yaradacaq.

Eyni zamanda uyğunlaşdırma çərçivəsində Vergi Məcəlləsində, "Reklam haqqında" Qanunda müvafiq dəyişikliklər edilir. Buraya "birdəfəlik istifadə üçün elektron siqaret"in və "elektron siqaretlər üçün maye"nin aksizli mallar siyahısından çıxarılması və bundan irəli gələrək vergi dərəcələrinin ləğvi, eyni zamanda reklamla bağlı qadağanın yeni anlayışlara uyğunlaşdırılması aiddir.

Qanun 2026-cı il aprelin 1-dən qüvvəyə minəcək.

YENİ MÜSAVAT
N 4 (8853) 28 yanvar 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

# Azərbaycan nümayəndə heyəti APA sessiyasında

## Asiya Parlament Assambleyası ilə münasibətlərdə yüksəliş




**Azərbaycanın xarici siyasətində parlament diplomatiyası da getdikcə mühüm rol oynayır. Bu kontekstdə ölkənin Asiya Parlament Assambleyası (APA) ilə münasibətləri Bakının Asiya məkanında siyasi dialoqu genişləndirməsi, regional və qlobal proseslərdə mövqelərini çatdırması baxımından xüsusi əhəmiyyət daşıyır.**

2006-cı ildə yaradılan Asiya Parlament Assambleyası Asiya qitəsində parlamentlərarası əməkdaşlığı təşviq edən mühüm beynəlxalq platformadır. Assambleya siyasi dialoq, iqtisadi əməkdaşlıq, təhlükəsizlik, enerji, nəqliyyat və humanitar məsələlər üzrə üzv ölkələrin mövqelərinin uzlaşdırılmasına xidmət edir. Hazırda APA Asiyanın müxtəlif regionlarını təmsil edən onlarla dövləti bir araya gətirir və qeyri-blok xarakteri ilə seçilir.

Azərbaycan Asiya Parlament Assambleyasının fəal üzvlərindən biridir və bu platformanı öz xarici siyasət prioritetlərinin təqdimatı üçün effektiv mexanizm kimi qiymətləndirir. Milli Məclisin nümayəndə heyətləri APA-nın plenar sessiyalarında və komitə iclaslarında mütəmadi iştirak edərək, regional təhlükəsizlik, suverenlik və beynəlxalq hüququn prinsipləri ilə bağlı mövqelərini diqqətə çatdırırlar.

Xüsusilə ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı məsələləri Azərbaycanın APA çərçivəsində davamlı şəkildə qaldırdığı əsas mövzulardandır. Rəsmi Bakı bu platformada beynəlxalq hüququn selektiv deyil, universal tətbiq olunmasının vacibliyini vurğulayır.

Uzun illər ərzində Azərbaycan APA tribunasından istifadə edərək Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri Asiya ölkələrinin parlament nümayəndələrinə çatdırmağa çalışıb. Xüsusilə işğal dövründə qəbul olunan bəyanatlar və ikitərəfli təmaslar Azərbaycanın mövqeyinin daha geniş coğrafiyada anlaşılmasına şərait yaradıb.

Postmünaqişə mərhələsində isə Bakı regionda sülh gündəliyini, bərpa və reinteqrasiya proseslərini APA çərçivəsində təqdim edir. Bu, Azərbaycanın artıq yalnız problem yaşayan deyil, regional sabitlik təşəbbüslərini irəli sürən aktor kimi çıxış etdiyini göstərir.

**Milli Məclisin İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq Komitəsinin üzvü Aydın Hüseynov** "Yeni Müsavat"a bu barədə şərhində bildirdi ki, Azərbaycan-APA münasibətlərinin mühüm istiqamətlərindən biri də iqtisadi və nəqliyyat məsələləridir. Azərbaycan Asiyanı Avropa ilə birləşdirən Orta Dəhliz layihəsinin əsas iştirakçılarından biri kimi bu mövzunu parlament diplomatiyası səviyyəsində də gündəmdə saxlayır: "Enerji təhlükəsizliyi, alternativ marşrutlar və logistika zəncirlərinin şaxələndirilməsi məsələləri Asiya ölkələri üçün strateji əhəmiyyət daşıdığından, Bakı bu platformada etibarlı tərəfdaş imicini gücləndirməyə çalışır.

APA ilə əməkdaşlıq Azərbaycanın balanslaşdırılmış və çoxtərəfli xarici siyasət kursunun tərkib hissəsidir. Qərb institutları ilə yanaşı, Asiya platformalarında da fəal iştirak Bakıya beynəlxalq arenada manevr imkanlarını genişləndirməyə, müxtəlif siyasi bloklar arasında dialoq körpüsü rolunu oynamağa imkan verir.

Bu baxımdan, APA Azərbaycan üçün yalnız parlamentlərarası format deyil, həm də geosiyasi balansın qorunması aləti kimi çıxış edir".

**Deputat dedi ki, gələcək mərhələdə Azərbaycanın APA çərçivəsində təşəbbüslərinin daha da artacağı gözlənilir. Xüsusilə iqlim dəyişiklikləri, yaşıl enerji, rəqəmsal transformasiya və postmünaqişə bərpası kimi mövzular Bakının gündəliyində ön sıralarda yer alır:** "Ümumilikdə, Azərbaycanın Asiya Parlament Assambleyası ilə münasibətləri ölkənin artan regional rolunu, parlament diplomatiyasının institusional güclənməsini və çoxtərəfli əməkdaşlığa verdiyi önəmin bariz nümunəsi kimi qiymətləndirilməlidir".

Onu da qeyd edək ki, Azərbaycan-Asiya Parlament Assambleyası münasibətlərinin inkişafı istiqamətində daha bir addım iki gün öncə atılıb. Azərbaycan Milli Məclisinin nümayəndə heyəti APA-nın Bəhreyndə keçirilən plenar sessiyasında iştirak edib. Milli Məclisin Asiya Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Rizvan Nəbiyev sessiyada çıxışında bildirib ki, Asiyada sülhün və tərəqqinin möhkəmləndirilməsində parlamentlər mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun inkişafında mühüm rol oynayır. O deyib ki, Asiya qitəsi sivilizasiyaların, mədəniyyətlərin və dinlərin zəngin müxtəlifliyi ilə seçilir və bu müxtəliflik həm böyük üstünlük, həm də mühüm məsuliyyət yaradır.

Deputat çıxışında Azərbaycanın multikulturalizm sahəsində zəngin tarixi təcrübəsi barədə məlumat verərək qeyd edib ki, ölkəmiz əsrlər boyu dini tolerantlığın və dinc yanaşı yaşamanın hökm sürdüyü məkan olub. Azərbaycanın coğrafi mövqeyi və tarixi irsi onu təbii şəkildə sivilizasiyalararası dialoqun mərkəzinə çevirib. O vurğulayıb ki, bu ənənələr Azərbaycanın həm Avropa, həm də Asiya institutları ilə fəal əməkdaşlığı ilə daha da möhkəmlənib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Etibar SEYİDAĞA

# Azərbaycan turizmdən 9 milyard qazanc əldə edib

**2025-ci ilin yanvar-noyabr aylarında Azərbaycanda xarici turistlərin konvertasiya olunan valyutada xərcləri 3 milyard manatdan, yerli turistlərin isə təkcə yanvar-sentyabr ayları üzrə xərcləri 4,5 milyard manatdan artıq olub.**



Bu barədə "Report"a açıqlamasında **Dövlət Turizm Agentliyi sədrinin müşaviri Kənan Quluzadə** məlumat verib.

Onun sözlərinə görə, ilin yekun göstəriciləri hələ açıqlanmasa da, ilkin qiymətləndirmələrə əsasən, turist xərclərinin 9 milyard manatı ötəcəyi proqnozlaşdırılır: "Yaxın illərdə bu göstəricilərin davamlı artımı gözlənilir ki, bu da həm ölkə rəhbərliyinin müəyyən etdiyi strateji tapşırıqlara, "2026-2030-cu illər üzrə Turizmin İnkişafı Dövlət Proqramı"na tam uyğundur.

Dövlət başçısı turizmun həm kəmiyyət, həm də keyfiyyət baxımından inkişaf etdirilməsinin zəruriliyini vurğulayıb. Bu istiqamətdə kompleks tədbirlər həyata keçirilir və turizm sahəsinin daha da genişləndirilməsi nəzərdə tutulub. Azərbaycan turizmi hazırda yeni inkişaf mərhələsinə qədəm qoyur".

**K.Quluzadə qeyd edib ki, postpandemiya dövründə bərpa prosesi, geosiyasi sabitliksizlik, qloballaşma və informasiya əlçatanlığının genişlənməsi fonunda dünya turizm bazarında hər bir turist üçün rəqabət getdikcə kəskinləşir. Bu şəraitdə Azərbaycan formalaşmaqda olan turizm istiqaməti kimi qlobal bazarda mövqeyini daha fəal gücləndirməli və təqdim etməlidir:** "Eyni zamanda faktiki beynəlxalq təcrübələr var ki, onların tətbiqi nəticəsində dünya üzrə bütün turizm ölkələri daha çox ziyarətçi cəlb edirlər. Bu prosesin əsas komponentlərindən biri qlobal bazarda həyata keçirilən marketinq kampaniyalarıdır".

**Onun sözlərinə görə, turizmin inkişafına ayrılan xərclər baxımından Azərbaycan dünyada orta mövqelərdə qərarlaşıb, 119 ölkə arasında 65-ci yeri tutur:** "Bu göstərici 2024-cü il üzrə Dünya İqtisadi Forumunun Səyahət və Turizm İnkişafı İndeksindən götürülüb. "Dövlətin səyahət və turizmin inkişafına ayırdığı xərclər" göstəricisi Dünya İqtisadi Forumunun qeyd olunan hesabatında 7 ballıq şkala üzrə qiymətləndirilir. Azərbaycanda bu göstərici 2,92 balla qiymətləndirilib. Dünya üzrə orta göstərici isə 3,5 baldır. Müqayisə üçün regiondakı qonşu ölkələrdən Gürcüstan 3,07 bal (56-cı yer), Ermənistan isə 3,31 bal (51-ci yer) ilə qiymətləndirilib".

"Gəlir artımını təmin etmək üçün isə daha çox investisiya tələb olunur. 2018-2024-cü illərdə Azərbaycan Turizm Bürosu hər yeni turistin cəlb edilməsi üçün 16,7 manat xərcləyib, dövlətin vergi gəlirləri isə 94,7 manat təşkil edib. Dövlət səviyyəsində turizmin inkişafına investisiya etmək təkcə sərfəli deyil, həm də zəruridir. Çünki turizm yalnız rəqəmlərdən ibarət deyil, həm də özünü, mədəniyyətini, tarixini geniş auditoriyaya tanıtmaq baxımından ən vacib sahələrdən biridir", - deyə K.Quluzadə vurğulayıb.

**Sədrin müşavirinin sözlərinə görə, turizmdən əldə olunan milyardlarla gəlirin fonunda dövlət xərclərinin "ekspertlər tərəfindən yenidən formatlaşdırılması" cəhdləri "sadəlövh" görünür:** "Məsələn, bugünlərdə bəzi media platformaları xarici jurnalistlərin, bloger və turizm sənayesi nümayəndələrinin Azərbaycan turizminin dünya bazarında təşviqi məqsədilə cəlb olunmasına ayrılan xərclərə "təəccüblənirlər". Bu, səriştəsizliyin göstəricisidir. Turizm sahəsində rəqəmsal marketinq turistlərin cəlb edilməsinin əsas vasitələrindən biridir. Dünyada səyahətçilərin üçdə birindən çoxu səyahət ideyalarının axtarışı üçün sosial şəbəkələrə müraciət edir. Şəbəkələrdə aktiv olmaq, sadəcə, bizim seçimimiz deyil, bir zərurətdir. Bu istiqamətdə artıq qeyd etdiyim kimi, xərclər baxımından, hətta qonşularımızdan da geriyə qalmışıq. Buna görə də yaxın gələcəkdə ən azından rəqabət qabiliyyətimizin artırılması üçün biz məşhur şüarda deyildiyi kimi, nəinki təkcə onlara çatmalı, hətta onları ötüb keçməliyik".

"Azərbaycan yaxın illərdə xarici turistlərin cəlb edilməsi və daxili turizm bazarının inkişafı sahəsində keyfiyyət və kəmiyyət baxımından kəskin artım nümayiş etdirməyi planlaşdırır. Ölkənin potensialı buna imkan verir. Hazırda postpandemiya bərpa prosesini tamamlayırıq. Növbəti beş il ərzində həm ziyarətçi say , həm turizmin ÜDM-də payının artması, həm dövlət və sənaye gəlirləri, həm yeni iş yerlərinin açılması, həm də ölkənin daha da tanınması baxımından artım təmin olunacaq", - deyə K.Quluzadə fikrini tamamlayıb.

YENİ MÜSAVAT

Son səhifə

N 4 (8853) 28 yanvar 2026

Yanvar



# Toyu oldu, oğrular evlərini soyub qaçdı

**İngiltərənin Şimali Yorkşir əyalətindəki Selby şəhərində cinayətkarlar toydan bir neçə saat sonra gəlin və kürəkəni qarət ediblər. Bu barədə regional "Hull Live" qəzeti xəbər verib.**

31 yaşlı Jaime Prince və onun 29 yaşlı nişanlısı Pol Kirvanın toyu ən yüksək səviyyədə keçirilib. Ancaq ertəsi gün toy təşkilatçıları onlarla əlaqə quraraq oğruların məkana girdiklərini söyləyiblər.

Prins durumu belə izah edib: "Cinayətkarlar toy keçirilən üç məkanı təmizləyiblər". Naməlum şəxslər yeni hədiyyələri, eləcə də toy üçün yığılan pulları oğurlayıblar. Yeni evlənən cütlük bu pullarla Cənub-Şərqi Asiyada bal ayı keçirməyi planlaşdırırdı. Bundan başqa, oğrular Kirvanın atasına məxsus BMW X5 markalı avtomobili oğurlayıblar. Maşında gənclərin nikah şəhadətnaməsi də olub.

Gəlinin sözlərinə görə, pul zərflərinin içində 8 min dollara yaxın vəsait olub. Polis oğurlanmış avtomobili tapmağı bacarıb. Yeni evlənənlər hadisə barədə yerli mediaya məlumat veriblər və başqalarından oğurluqla əlaqəli hər hansı bir məlumatın verilməsini istəyiblər. Faktla bağlı istintaq gedir.

# Sağlamlığa zərər vurmadan gündə nə qədər pendir yemək olar?



**Pendir gündəlik qida rasionuna daxil edilməlidir, lakin onun miqdarı ciddi şəkildə məhdudlaşdırılmalıdır. Bu tövsiyə Rusiyanın İctimai Səhiyyə və Tibbi Profilaktika Mərkəzinin mütəxəssisləri tərəfindən verilib. Həkimlərin rəyinə əsasən, pendirin gündəlik qəbulu miqdarı cəmi 30-50 qramdır ki, bu da iki baş barmaq ölçüsündə bir parçaya bərabərdir. Bu miqdar bədəni artıq kalori, duz və doymuş yağlarla yükləmədən məhsulun faydalarından yararlanmağa imkan verir. Həkimlər pendirin əsas faydaları arasında sümükləri və dişləri möhkəmləndirən yüksək kalsium və fosfor tərkibini, eləcə də yüksək keyfiyyətli protein və vacib aminturşularını vurğulayırlar. Məhsul immunitet sistemini, görmə qabiliyyətini və dəri sağlamlığını dəstəkləyən A, D və B vitaminləri ilə zəngindir, kifli və yaşıl növlərdəki probiotiklər isə bağırsaq mikroflorası üçün faydalıdır.**

Şiddətli laktoza həssaslığı və ya müəyyən böyrək xəstəlikləri kimi birbaşa əks göstərişlər olmadıqda, pendir hər gün yeyilə bilər.

# Bir məqalə oxudu, 60 kilo arıqladı

**Hindistanın Telangana əyalətinin Haydarabad şəhər sakini altı ay ərzində bir məqalə oxuduqdan sonra idman salonuna getmədən 14 kiloqram arıqlayıb. Bu barədə "Times of India" qəzeti məlumat verib. 34 yaşlı iki uşaq anası Tvinkle Jendar 74,2 kiloqram ağırlığında və arıqlamaq arzusunda olsa da, cəhdləri istənilən nəticəyə gətirib çıxarmadı. İkinci hamiləlikdən sonra sağaldığını və artıq çəkisi səbəbindən narahat olduğunu iddia edib. "Bir kilometrlik yürüşdən sonra da ayaqlarım dəhşətli şəkildə ağrıyırdı" deyə hindli qadın şikayətlənib.**

Goa tətilinə getdikdən sonra Jendar özünə bir məqsəd qoyub: gəlinliyini yenidən geyinə bilmək. Keçən ilin oktyabr ayında adaptiv termogenez - uzun müddət qidalanma və ya həddindən artıq yeməkdən sonra enerji xərclərindəki dəyişikliklə bağlı bir məqaləyə rast gəlib.

Məqaləni oxuduqdan sonra qadın idman etməyi dayandırıb. Bunun əvəzinə evi təmizləyərkən və digər gündəlik işlərdə daha çox enerji sərf etməyə çalışdı. Ancaq bəzən daha tez-tez uzanırdı və yeriyirdi. Bu şəkildə 60 kiloqrama qədər arıqlamağı bacarıb.

Nəticədə, Jendar son hədəfinə çata bilib və əlamətdar gündən etibarən toy ildönümünü geyimdə qeyd edib. Formaya düşmək istəyənlərə yuxu rejimini izləməyi və su içməyi unutmamağı tövsiyə edib.

# Çin şirkəti dünyanın ilk robot "oynaqları" fabrikini açıb

**Çinin "Eyou Robot Technology" şirkəti humanoid robotlar üçün "oynaqlar" istehsal edən fabrik yaradıb. Bu, öz növündə dünyanın ilk ixtisaslaşmış istehsal müəssisəsidir. Oxu.Az xəbər verir ki, bu barədə "South China Morning Post" məlumat yayıb. Fabrik Şanxayda yerləşir və ildə 100 000-ə qədər "oynaq" istehsal etmək üçün nəzərdə tutulub. Şirkət öz istehsal gücünü təxminən üç dəfə artırmağı planlaşdırır. "Eyou Robot Technology" bildirir ki, "oynaqlar" tək bir humanoid robotun dəyərinin təxminən 50%-ni təşkil edir.**

# Bunları bilirsinizmi?

*Elektrikli stul stomatoloq tərəfindən icad olunub.
*Vaşinqton və Cefferson öz plantasiyalarında çətənə becərirdilər.
* Qabıqsız ilbizin 4 burnu var.
* Albert Eynşteyn heç cür öz telefon nömrəsini yadda saxlaya bilmirdi.
* Dövlət məktəblərində işləyən müəllimlərin üçdə biri öz övladlarını özəl məktəblərə göndərir.
* Ayda üç qolf topu var.
* Kirli qar təmiz qara nisbətən daha tez əriyir.
* Nəsli tükənən və 58-60 milyon il öncə yaşadığı güman edilən Titanoboa adlı ilan dünyanın ən böyük heyvanlarından hesab edilir.
* İki gözümüzün hər birində 130 milyon görmə siniri var. Hər hüceyrədə isə 100 trilyon atom olduğunu düşünsək bu, ulduzlardan belə çoxdur.
* İsveç, Norveç, Finlandiyada möhtəşəm şimal işıqlarını izləyə bilərsiniz.
* Əgər nəyi isə xatırlamaqda çətinlik çəkirsinizsə, yumruğunuzu sıxın. Bu, beyin işinin sürətlənməsinə və yaddaşın işləməsinə kömək edəcək.

# Kişilərin 30 yaşına çatmadan saçları niyə tökülür?



**Son illər kişilər arasında saç tökülməsinin daha erkən yaşlarda müşahidə olunması geniş müzakirələrə səbəb olub. Mütəxəssislər bu problemin yaranmasında bir neçə əsas amilin rol oynadığını bildirirlər.**

Milli.Az xəbər verir ki, dermatoloqların sözlərinə görə, kişilərdə saç tökülməsinin ən əsas səbəbi genetik faktorlardır. Ailədə erkən yaşlarda saç tökülməsi müşahidə olunubsa, bu risk növbəti nəsildə də yüksək olur. Xüsusilə androgenetik alopesiya adlanan bu tip saç tökülməsi hormonlarla birbaşa əlaqəlidir.

Mütəxəssislər qeyd edirlər ki, stress və gərgin həyat tərzi də saç tökülməsini sürətləndirən əsas səbəblər sırasındadır. Uzunmüddətli stress saç köklərinin zəifləməsinə və tökülmənin artmasına səbəb olur.

Bununla yanaşı, düzgün qidalanmama, vitamin və mineral çatışmazlığı, xüsusilə də dəmir, sink və B qrupu vitaminlərinin azlığı saç sağlamlığına mənfi təsir göstərir. Həmçinin, siqaret və spirtli içkilərdən istifadə, yuxusuzluq və hormonal pozuntular da saç tökülməsini gücləndirən amillər arasında yer alır.

Həkimlər xəbərdarlıq edirlər ki, saç tökülməsi normadan artıq olduqda və ya qəfil başladıqda mütləq mütəxəssisə müraciət edilməlidir. Erkən diaqnoz və düzgün müalicə ilə saç tökülməsinin qarşısını almaq və prosesi yavaşlatmaq mümkündür.

# Qışda şam yeməyi üçün ideal vaxt

**Qış mövsümündə qidalanma rejiminə düzgün əməl etmək həm həzm sistemi, həm də ümumi sağlamlıq üçün mühüm əhəmiyyət daşıyır. Mütəxəssislərin fikrincə, şam yeməyi üçün ideal vaxt 18:00-19:30 aralığıdır. Araşdırmalara görə, bu saatlarda qəbul edilən yemək orqanizmdə daha rahat həzm olunur və gecə yuxusuna mənfi təsir göstərmir. Xüsusilə qışda günlərin qısa olması və fiziki aktivliyin azalması gec saatlarda yeməyin çəki artımına səbəb ola biləcəyini artırır.**

Mütəxəssislər bildirir ki, yatmazdan ən azı 2-3 saat əvvəl şam yeməyini bitirmək vacibdir. Bu, mədə-bağırsaq sisteminin yüklənməsinin qarşısını alır və rahat yuxuya şərait yaradır. Qış axşamlarında şam yeməyinin yüngül olması tövsiyə edilir. Tərəvəz yeməkləri, şorbalar, balıq və ya az yağlı ət məhsulları ideal seçim sayılır. Ağır, yağlı və çox şirin qidalardan isə uzaq durmaq məsləhətdir. Düzgün vaxtda və balanslı şəkildə qəbul edilən şam yeməyi qış aylarında həm çəkini qorumağa, həm də sağlam qalmağa kömək edir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.